RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 177 (8770) ÇƏRŞƏNBƏ AXŞAMI, 24 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qarabağın dirçəlişinin növbəti təntənəsi

## Artıq ilk təyyarə Füzuli Beynəlxalq Hava Limanına eniş etdi

“...Bu gün artıq biz quruculuq işlərinə başlamışıq...”
Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının 30 ildən çoxdur ki, həsrətlə gözlədiyi bu sevincli məqamın müjdəsini, Qələbə günündən cəmi 8, Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra işğaldan azad edilən doğma Füzulidən bəyan etdi.

Ölkəmizin, xalqımızın həyatında əlamətdar günlərdən biri kimi tarixə yazılan 2020-ci ilin 16 noyabrında dövlət başçısı bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparan yollardan birinin, Füzuli-Şuşa avtomobil yolunun təməlini qoydu.

Müzəffər sərkərdəmiz bununla da Qarabağ münaqişəsinin birdəfəlik tarixin arxivinə göndərildiyini və İkinci Qarabağ müharibəsinin Azərbaycanın şanlı Qələbəsi ilə bitdiyini, torpaqların işğalçılardan azad edildiyini və artıq bu ərazidə yeni həyatın qurulmasına başlanıldığını, Qarabağa böyük qayıdışın təməlinin qoyulduğunu nümayiş etdirdi. Füzuli-Şuşa yolu uğur yolumuzun rəmzinə çevrildi...

### İşğaldan azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli layihə

Üzərindən çox keçmədən, bu ilin yanvarın 14-də Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrliyində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda beynəlxalq hava limanının təməllərini qoydu.

Düşməndən azad edilən ərazilərimizin inkişafı üçün əhəmiyyətli layihə olan Füzuli Beynəlxalq Hava Limanının tikintisinin qısa zamanda həyata keçirilərək istifadəyə verilməsinin böyük siyasi və iqtisadi əhəmiyyəti var.

İlk növbədə, bu onun göstəricisidir ki, artıq işğaldan azad edilən ərazilərimizdə sürətlə yüksəksəviyyəli həyat şəraiti yaradılır, böyük quruculuq işləri aparılır. Bu da ondan xəbər verir ki, tezliklə bütün məcburi köçkünlər zorla didərgin salındıqları doğma yurdlarına dönəcəklər...

Dövlət başçısı hava limanının təməlini qoyan zaman onun vacib əhəmiyyətindən danışaraq bildirdi ki, bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. “...Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil”.

Prezident İlham Əliyev xüsusilə vurğuladı ki, böyük qayıdış başlayır. Bütün işlərə start verildi: “Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik”.

### Düşmən nə qədər çalışsa da, Qarabağa yolumuzu bağlaya bilmədi

30 il ərzində düşmən işğal etdiyi dədə-baba torpaqlarımızda bütün infrastrukturu dağıtmış, şəhərlərimizi, kəndlərimizi yerləyeksan etmiş, təbiətimizə qənim kəsilmişdi. Mənfurlar düşünürdülər ki, bu barbar əməlləri ilə xalqımızın əzəli yurdu Qarabağa yolunu bağlayacaqlar.

Ardı 2-ci səh.

# Ukraynanın Prezidenti zati-aliləri cənab Volodimir Zelenskiyə

Hörmətli cənab Prezident!

Dost Ukraynanın müstəqilliyinin 30-cu ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan-Ukrayna əlaqələri dərin tarixi köklərə və xoş ənənələrə malikdir. Möhkəm təməllər üzərində qurulan dövlətlərarası münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi məmnunluq doğurur.

Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan ikitərəfli əlaqələrimiz, müxtəlif sahələri əhatə edən sıx və səmərəli əməkdaşlığımız xalqlarımızın iradəsinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizi bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar, dost Ukrayna xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2021-ci il*

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Türkiyə Respublikasında meşə yanğınlarının söndürülməsində iştirak etmiş əməkdaşlarının mükafatlandırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Türkiyə Respublikasında meşə yanğınlarının söndürülməsində iştirak etmiş əməkdaşların mükafatlandırılması üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 1,0 (bir) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2021-ci il*

# Qalib Sərkərdənin mövqeyi dəyişməzdir

“Ermənistan yeni müharibəyəmi hazırlaşır?! Əgər belədirsə, onda biz qabaqlayıcı tədbirlər görəcəyik. Mən bunu demişdim və bir daha demək istəyirəm, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır”.

## İlham Əliyev məğlub Ermənistana növbəti dəfə çıxış yolu göstərdi

İkinci Qarabağ müharibəsinin Qalib Sərkərdəsi İlham Əliyev “CNN Türk” kanalına müsahibəsində səsləndirdiyi bu fikirləri ilə, əslində, tək məğlub Ermənistana deyil, Azərbaycana qarşı düşmən mövqelərdə duran, ölkəmiz üçün yeni təhdidlərə cəhd etmək xülyasında olan bütün qüvvələrə aşkar xəbərdarlıq mesajı verdi. Əgər xatırlayırlarsa, Prezident müharibədən öncə də bir neçə dəfə belə xəbərdarlıqlar etmişdi. Amma Ermənistan və havadarları bu xəbərdarlıqlara əhəmiyyət verməyincə “dəmir yumruq” işə düşdü və düşmənin başını əzib ədaləti bərpa etdi.

### Təkliflər masa üzərindədir

İndi diktəni İlham Əliyev edir və Ermənistan məğlub ölkə kimi Azərbaycan Prezidentinin fikirləri ilə hesablaşmağa məhkumdur. Lakin görünən odur ki, Azərbaycan qarşısında diz çökən bu ölkə son dövrlərdə yenə havadarlarına arxalanaraq əl atdığı təxribatlarla nəsə etməyə çalışır. Buna görə də İlham Əliyev Ermənistana və havadarlarına mesaj göndərməklə xatırlatma etdi. Prezident dedi ki, üçtərəfli 10 noyabr Bəyanatının bütün müddəalarına qeyd-şərtsiz əməl olunmalıdır. Əgər Ermənistan buna əməl edərsə, Cənubi Qafqazda bundan sonra davamlı sülh, sabitlik və inkişaf bərqərar ola bilər. Eyni zamanda iqtisadi-ticari əlaqələrdə yeni mərhələ başlaya bilər və bu həm də Ermənistanın xeyrinə işləyər.

Lakin görünən odur ki, məğlub ölkə hələ də iztirablar içərisində olan xalqını süründürmək qərarından daşınmayıb. Əgər belə olsaydı, Ermənistan rəhbərliyi Azərbaycanla sülh müqaviləsi imzalayardı. Hər iki ölkə bir-birilərinin ərazi bütövlüyünü tanıyar və bundan sonra sərhədlərin delimitasiyası həyata keçirilər və bununla da bölgədə yeni inkişaf dövrü başlayardı.

Ancaq bu günə qədər Ermənistandan müsbət cavabın alınmaması təsdiq edir ki, məğlub ölkə buna hazır deyil, ya da bunun əleyhinədir. İlham Əliyev də deyir ki, bu, Ermənistanın lehinə olan prosesdir. Əgər sülh müqaviləsi imzalanmasa, peşman olan tərəf Ermənistan olacaq. Çünki Azərbaycan bu təklifi masa üzərində əbədi saxlamalı deyil: “Əgər buna etiraz edirlərsə, açıq söyləsinlər ki, onlar Azərbaycanla sülh müqaviləsi imzalamaq istəmirlər. Belə olan halda biz də öz siyasətimizi buna uyğun şəkildə aparacağıq. Əgər Ermənistan buna hazırdırsa, əgər Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü tanımağa hazırdırsa, onda, əlbəttə ki, bölgəyə uzunmüddətli sülh gələcək. Biz bunu istəyirik və eyni zamanda buna nail olmaq üçün indi konkret təkliflər də masa üzərindədir”.

Ardı 2-ci səh.

# Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 1,6 milyon (bir milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2021-ci il*



# Yolumuz abad, işimiz avand

Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanda avtomobil yollarının tikintisi istiqamətində mühüm beynəlxalq və yerli əhəmiyyətli layihələr icra olunur.

## Yeni avtomobil yollarının coğrafiyası genişlənməkdə davam edir

Tarixi “İpək yolu” layihəsindən sonra ikinci beynəlxalq əhəmiyyətli “Şimal-Cənub” marşrutu üzrə yolun çəkilməsi davam edir, rayon və kəndlərarası avtomobil yolları əsaslı təmir olunaraq yenidən qurulur.

Məlumdur ki, avtomobil yolları mütəmadi olaraq texniki xidmət göstərilməsini tələb edir. Bunun üçün də paytaxtda və bölgələrdə yolların təmiri prosesi dayandırılmır.

Həyata keçirilən yol-nəqliyyat infrastrukturu layihələri iki əsas mənbədən maliyyələşdirilir. Birincisi, avtomobil yollarının dünya standartlarına cavab verməsi üçün daxili investisiyalardan istifadə edilir, ikincisi, xarici sərmayələr cəlb olunur. Xarici bankların yol çəkilişinə sərmayə yatırması isə ölkəmizdəki münbit investisiya mühiti və dövlətimizə olan inamla bağlıdır.

Bəs faktlar nə deyir?

Bu günlərdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) cari ilin 6 ayı üzrə gördüyü işlər barədə hesabatını açıqlamışdır.

Ardı 4-cü səh.

# Hər bir insanın qaydalara ciddi əməl etməsi vacibdir

## Yalnız bu yolla koronavirusdan qorunmaq mümkündür

İlyarımdan artıqdır ki, əsrin bəlasına çevrilmiş COVID-19 pandemiyasına qarşı ölkəmizdə ciddi mübarizə aparılır. Pandemiyanın ilk günlərindən Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıqlarına əsasən, insanların sağlamlığının qorunması məqsədilə bu gözəgörünməz virusa qarşı mühüm tədbirlər görülür.

İlin əvvəlindən başlanan peyvəndləmə nəticəsində bir ay bundan öncəyədək yoluxmaların və ölüm hallarının sayında kəskin azalma müşahidə olundu. Bundan sonra müəyyən qadağalar aradan qaldırıldı, bəzi yumşaltmalar oldu. Lakin indi vəziyyət dəyişib. Ölkə rəhbərliyini və ictimaiyyəti narahat edən odur ki, bu təhlükəli virus səbəbindən xəstələnənlərin və həyatını itirənlərin sayı əvvəlki aylara nisbətən artıb. Bu məsələlərlə əlaqədar avqustun 20-də Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi brifinqdə genişliyi ilə açıqlama verilib. Yaranan narahatlıq və qarşıda duran vəzifələr KİV vasitəsi ilə ictimaiyyətə çatdırılıb.

Brifinqdə iştirak edən Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov bildirib ki, bu gün pandemiyaya yoluxanların böyük əksəriyyəti peyvənd olunmayan şəxslərdir.

Ardı 5-ci səh.

## ◆ Qarabağ dirçəliş yolundadır



# Qalib Sərkərdənin mövqeyi dəyişməzdir

## İlham Əliyev məğlub Ermənistana növbəti dəfə çıxış yolu göstərdi

Əvvəli 1-ci səh.

İlham Əliyev deyir ki, yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yəni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi hər iki ölkənin maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi Ermənistanın da maraqlarına xidmət edəcək. Ermənistan da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilər. Bu günə qədər isə bu əlaqə olmayıb. Bu isə o deməkdir ki, Azərbaycan bu ölkənin bataqlıqdan qurtuluşu üçün yeni imkanlar yaradır və bu da Ermənistanın ağır vəziyyətdən çıxması üçün bir fürsətdir.

Prezident birmənalı şəkildə vurğulayır ki, Ermənistanda ifrat millətçilik, türkofobiya, azərbaycanofobiya, islamofobiya insanların və hakim dairələrin beyinlərini zəhərlədiyi üçün onlar bunu istəsələr də, dilə gətirə bilmirlər: "Ermənistanda cəmiyyət və hakimiyyət təbii ki, indi çox çətin bir psixoloji durumdadır. Çünki onların otuz il ərzindəki ideoloji sütunları darmadağın edildi, mifologiya darmadağın edildi. Erməni ordusunun "müzəffər ordu" olmasını biz 44 gün ərzində yerlə bir etdik. Onların ərazi iddiaları məhv edildi".

### "Dəmir yumruq" istənilən an işə düşə bilər

İlham Əliyev sülh müqaviləsinin bağlanmasının zəruri şərt olduğunu vurğulamaqla bir daha öz siyasi iradəsini və Azərbaycanın dəyişməz mövqeyini ortaya qoydu. Prezidentin müsahibəsində yer alan ən əhəmiyyətli məqamlardan biri də erməni əsgərlərinin Laçın dəhlizi ilə Qarabağa göndərilməsi faktı barədə oldu.

Xatırladaq ki, bir neçə gün öncə Müdafiə Nazirliyi rəsmi açıqlama yayaraq bu prosesə son qoyulmasını tələb etmişdi. Prezident də vurğuladı ki, Rusiyanın sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərə Ermənistandan silahlar və hərbçilər göndərilə bilməz. Bu, 10 noyabr üçtərəfli Bəyanatına ziddir. Lakin təəssüflər olsun ki, bu proses bu günə qədər davam edir: "Biz bir neçə dəfə şifahi qaydada öz iradlarımızı bildirmişdik. Ancaq bunun nəticəsi olmadı, ona görə biz rəsmi qaydada bunu bildirdik".

Bütün bunlar bir daha təsdiqləyir ki, Ermənistan hökuməti qeyri-konstruktiv mövqe nümayiş etdirir. Ona görə də İlham Əliyev bəyan etdi ki, Azərbaycan hər an adekvat tədbirlər görə bilər.

Bir məqamı xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan bu gün Laçın dəhlizi ilə hərəkət edən bütün insanları və texniki vasitələri dəqiqliyi ilə müşahidə edə bilir, Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan bölgələrdə baş verən hadisələri diqqətlə izləyir. Ona görə də dövlətimizin başçısı Cənubi Qafqazda vəziyyətin gərginləşməsinə çalışan bütün qüvvələri bu barədə son dərəcə aydın şəkildə xəbərdar etdi: "Laçın dəhlizi bizim gözümüzün önündədir. Bizim orada təbii ki, texniki vasitələrimiz, kameralarımız var. Biz Laçın dəhlizi ilə Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan bölgələrdə baş verən hadisələri də izləyirik. Xankəndiyə gedən avtomobillərin sayını dəqiqliyi ilə bilirik. Təbii ki, buna son qoyulmalıdır. Çünki bunun heç bir məntiqi əsası yoxdur".

İlham Əliyev bir daha bəzi dairələrə xəbərdarlıq edərək dedi ki, Azərbaycan Qarabağda gedən bütün proseslərə nəzarət edir və lazım gələrsə istənilən prosesə müdaxilə etmək iqtidarındadır.

İkinci Qarabağ müharibəsinin qalib Baş Komandanı bütün fikirlərində Ermənistan və havadarlarına mesajlar verir. Dövlətimizin başçısı bir daha xatırlatma etdi ki, "dəmir yumruq" istənilən an işə düşə bilər. Odur ki, məğlub Ermənistanın İlham Əliyevin şərtləri ilə hesablaşması ən doğru yoldur. Əks təqdirdə yenə də uduzan Ermənistan olacaq.

### İlham Əliyevin əzmkarlığı və güclü siyasi iradəsi ilə Qarabağ cənnətə çevrilir

Avqustun 16-da Prezident İlham Əliyev Kəlbəcər və Laçında bir çox layihələrin təməlini qoymaqla həm müharibədən yeni çıxmış dövlətin iqtisadi qüdrətini, həm də vədinə, əməlinə sadiqliyini nümayiş etdirdi. İlham Əliyev göstərdi ki, ermənilərin 30 il ərzində darmadağın etdiyi infrastrukturları Azərbaycan ən qısa zamanda yenidən qurur. Yollar, su-elektrik stansiyaları, hava limanlarının tikintisi onu göstərir ki, Azərbaycan öz iqtisadi imkanları hesabına Qarabağda xariqələr yaradır. Təkcə Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xəttinin çəkilməsinə nəzər yetirsək görərik ki, ən çətin şəraitdə Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb. Bütün bunlar təsdiq edir ki, İlham Əliyev işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində genişmiqyaslı işlər həyata keçirilməkdədir.

Həyata keçirilən layihələri qiymətləndirən dövlət başçısı vurğuladı ki, bütün planlar yerinə yetirildikdən sonra enerji potensialımız da güclənəcək: "Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir".

Prezident Kəlbəcərdən həm də beynəlxalq aləmə mesaj verərək diqqəti ona çəkdi ki, Azərbaycan öz haqq işini yerinə yetirir. Artıq regionda söz sahibi kimi Azərbaycanın razılığı və təşəbbüsü olmadan heç bir layihə həyata keçirilə bilməz və bundan sonra da situasiyanı Azərbaycan diktə edəcək.

Hər kəs şahidi oldu ki, İlham Əliyev Qarabağla bağlı müəyyənləşdirdiyi yol xəritəsini uğurla icra etməyə başlayıb. Tezliklə Zəngəzur dəhlizinin açılması isə İlham Əliyevin təklif etdiyi yeni əməkdaşlıq formatının yaranması üçün real zəmin yaratmış olacaq. Azad edilmiş bölgələrin - Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların bu ərazilərimizə qaytarılması üçün yeni imkanlar açılacaq.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_"Azərbaycan"_**

# Qarabağın dirçəlişinin növbəti təntənəsi

## Artıq ilk təyyarə Füzuli Beynəlxalq Hava Limanına eniş etdi



Əvvəli 1-ci səh.

Amma hər ötən an bizi Qarabağa daha da yaxınlaşdırırdı. Bir an belə ürəyimizdəki Vətən sevgisi, yurda qayıdış ümidi öləzimədi. Xalqımızın qəlbindəki bu böyük inam Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində heç zaman sönmədi.

Sərkərdə qətiyyətindən güc alan igid oğullarımız 30 il idi ki, dədə-baba yurdumuzda maddi-mədəni abidələrimizi məhv edən, Azərbaycan xalqına məxsus bütün izləri silməyə çalışaraq zorla Qarabağımıza yiyələnmək istəyən düşməni cəmi 44 gün ərzində məhv etdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz, qəhrəman əsgərlərimiz, canlarını bu torpağa qurban edən şəhidlərimiz Qarabağı yağı tapdağından azad edərək xalqımıza Zəfər müjdəsi verdilər.



### Füzuli Beynəlxalq Hava Limanında xüsusi hava gəmisi ilə uçuşlar həyata keçirilir

İndi isə illər idi ki, həsrət qaldığımız, düşmənin viranəyə çevirdiyi yurdlarımıza yenidən həyat qayıdıb. Böyük quruculuq, bərpa, tikinti işləri aparılır. Füzulidə, Zəngilanda və Laçında beynəlxalq hava limanları inşa olunur.

Görülən bütün bu işlərin hər biri Prezident İlham Əliyevin nəzarəti altında həyata keçirilir.

Qarabağda həyata keçirilən əhəmiyyətli layihələrdən olan hava limanlarının tikintisi də dövlət başçısının şəxsi nəzarəti altındadır və daim aparılan işlərlə yerində maraqlanır. Elə iyunun 14-də də Prezident İlham Əliyev Füzuli rayonuna səfərə gələrək beynəlxalq hava limanında tikinti işlərinin gedişi ilə şəxsən tanış olmuşdu.

Yüksək diqqət və göstərilən əzmkarlığın nəticəsidir ki, 20-25 avqust tarixlərində Füzuli Beynəlxalq Hava Limanında müntəzəm reyslərin yerinə yetirilməsi məqsədilə radiotexniki vasitələrin hazırlığının yoxlanılması üçün xüsusi hava gəmisi ilə uçuşlar həyata keçiriləcək.

Qeyd edək ki, AFIS (Aero Flight Inspection System) - hava limanlarında enmə vasitələrinin və yerüstü radionaviqasiya sistemlərinin yoxlanılması üçün istifadə olunan müasir tam avtomatik uçuş nəzarət sistemidir.

Bu isə Qarabağa böyük qayıdışın başlanğıcından xəbər verir.

Tezliklə vətəndaşlarımız da, xarici turistlər də həm quru, həm də hava yolları ilə cənnət Qarabağın görüşünə gələcəklər...

**_Yasəmən MUSAYEVA,_**
**_"Azərbaycan"_**

# Şuşaya Zəfər yolu Füzulidən başlayır

## Qarabağın məhv edilən maddi-mədəniyyət nümunələri minillik tariximizin yadigarıdır

30 ilə yaxın müddətdə torpaqlarının 20 faizi təcavüzkar Ermənistan tərəfindən işğala məruz qalan Azərbaycan, nəhayət ki, düşmənə öz yerini göstərdi. Hələ şanlı zəfər yürüşünədək Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olarkən düşmən tərəfə 2016-cı ilin "Aprel dərsi"ndən düzgün nəticə çıxarmağı xatırlatmışdı:



*"Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri Aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü Ordumuz var. Biz Ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun! Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik!"*

Ötən il 44 günlük Vətən müharibəsində həmin şərəfli günün şahidinə çevrildik. Tarixin elə səhifələri var ki, onlar yazıya alınmasalar da, maddi-mədəniyyət abidələrində öz əksini tapır. Belə müqəddəs abidələr məskəni olan Azərbaycanın da tarixinin oxunulmamış səhifələri, yaxud daşlaşmış mədəni məbədləri az deyil. Zaman, ictimai-iqtisadi formasiyalar və quruluşlar, dinlər bir-birini əvəzlədikcə həmin abidələrə münasibət də dəyişib: sonrakı dövrlərdə "qəzəb"ə tuş gələrək bir çoxu yer üzündən silinib.

Təkcə Azərbaycanın deyil, dünyanın ən qədim tarixə malik diyarlarından biri olan Füzuli rayonunun ərazisindəki Azıx mağarası da ilk insan məskəni kimi bəşəri sivilizasiyanı heyran qoyurdu. Bu uludan-ulu məkan minilliklər boyu müxtəlif məşəqqətlərin şahidi olub. "Böyük Ermənistan" uğrunda aparılan çirkin, şovinist siyasət Azərbaycanın, sözün əsl mənasında, dilbər guşəsi olan Qarabağının nəinki dağlıq hissəsində, onun digər ərazilərində də öz izlərini qoydu. İşğala məruz qalan qədim yaşayış məskənlərimizdən biri də ərazilərinin xeyli hissəsi 27 il Ermənistan silahlı birləşmələrinin nəzarəti altında qalan, vaxtilə dünyanın etnoqraflarını heyrətdə qoymuş Azıx mağarasının yerləşdiyi Füzuli rayonudur.

Dünya üçün maraqlı görünən Azıx mağarası insanlara uzun müddət vahiməli, əjdahaların və digər sehrli canlıların yaşadığı yer kimi görünüb. Ona görə də bu sirri açanlardan savayı, kimsə ora girməyə cəsarət etməyib. Beləliklə, Azıx uzun müddət qapalı şəkildə qalıb. Buradakı tapıntı üzərində aparılan tədqiqatlar təsdiqləmişdi ki, o, ən azı, 350-400 min illik bir dövrü əhatə edir.

Füzulidə Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra tarixi-mədəni abidələr də vardı. Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəllidə hamar daşlardan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndindəki Hacıqiyasəddin məscidi (1862-ci il), Karvansara (1864-cü il), Füzuli şəhərindəki Hacı Ələkbər məscidi (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulmuş at, qoç fiqurları tariximizin dərin qatlarından soraq verən, mədəniyyətimizin inkişafını təsdiqləyən, ulu etnikə malik olduğumuzu sübut edən tutarlı faktlar olmuşdur. Təəssüf ki, erməni vandalizminin qurbanlarına çevrilmiş tarixin bu daş salnaməsinin sonrakı taleyi bizə məlum deyil. Digər işğal olunmuş rayonlarımızın ərazisindəki kimi, burada da daşnak tör-töküntüləri tarixi-memarlıq abidələrimizə divan tutmuş, müqəddəs ziyarətgahları yerləyeksan etmişlər.

Rayonda bir şəhər, bir şəhər tipli qəsəbə, 75 kənd və digər yaşayış məntəqələri olub. Bu yerlərdən axan Qusarçay, Köndələnçay, Qozluçay, Çərəkan Xan Arazın hövzəsinin çayları - qollarıdır.

İşğala qədər rayonda 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrı, 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri-zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki-peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və digər obyektlər var idi.

1988-ci ildən başlayan erməni təcavüzünə qarşı barışmaz mübarizə aparan Füzuli əhalisi doğma torpaq uğrunda çox itki verib. Müharibənin bu ərazidə əsas ağırlığını rayonun Yağlıvənd, Qacar, Divanallar, Yuxarı və Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Govşad, Xələfşə, Mollavəli kəndlərinin əhalisi çəkib. Birinci Qarabağ döyüşlərində 1100 nəfərdən çox şəhid, yüzlərlə itkin vermiş Füzulidə bu gün 1500-dən çox əlil və şikəst var. 27 il öncə itkin düşmüş, girov götürülmüş 113 füzulilidən hələ də soraq yoxdur. Erməni təcavüzü nəticəsində Füzulidə dünyaya gələn uşaqlardan 36361 nəfəri zərər çəkib ki, onlardan 155-i atasız, anasız qalıb.

Füzuli rayonu da tamamilə işğala məruz qalmış rayonlarımızdan idi. Ulu Öndər Heydər Əliyevin bir çağırışı ilə 1994-cü ildə Füzuli rayonunun müəyyən hissəsi, sonradan isə Lələtəpə yüksəkliyi, Cəbrayılın Cocuq Mərcanlı kəndi, daha sonra 44 günlük Vətən müharibəsində qazanılan qələbə! İndi Füzuli yenidən qurulur. Çox keçməz ki, bu diyarımız cənnətməkana çevrilər.

**_Məhəmməd NƏRİMANOĞLU,_**
**_"Azərbaycan"_**

# Hərbçilərimiz "Artilleriya atəşinin ustaları" müsabiqəsinə hazırlığı davam etdirirlər



Azərbaycan hərbçilərinin "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinə hazırlığı davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, növbəti gündə heyətin atəş mövqelərini tutması və komanda müşahidə məntəqələrinə açılması, minaatan qurğularının döyüşə və səfər vəziyyətinə gətirilməsi, tuşlanması, doldurulması və döyüş atışının icra olunması tapşırıqları məşq edilib.

Artilleriyaçılarımızın çətin keçilən ərazidə döyüş texnikasının idarə edilməsi və döyüş şəraitində tətbiqi üzrə vərdişləri təkmilləşdirilib. Dünyanın 10 ölkəsindən olan artilleriyaçıların iştirak etdiyi müsabiqədə silah və döyüş texnikası ilə mərhələlər üzrə müxtəlif tapşırıqlar yerinə yetiriləcək.







# "Dəniz kuboku" müsabiqəsinin keçiriləcəyi əraziyə və təlim-məşq qurğusuna baxış keçirilib



"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində İranın Ənzəli şəhərində keçirilən "Dəniz kuboku" müsabiqəsində iştirak edən hakimlər komissiyasının və komandaların üzvləri tapşırıqların yerinə yetiriləcəyi ərazi və təlim-məşq qurğusuna baxış keçiriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hakimlər komissiyası tərəfindən komandaların üzvlərinə müsabiqənin keçirilmə qaydaları izah olunub, mərhələlər üzrə şərtlər və təhlükəsizlik qaydaları çatdırılıb, digər təşkilati məsələlərlə bağlı ilkin təlimat keçirilib.

Dənizdə gəmilərin qarşılıqlı fəaliyyəti və rabitə əlaqəsi müəyyənləşdirilib, o cümlədən müsabiqənin çalışmaları üzrə naviqasiya və taktiki hesablamalar da aparılıb.

Qeyd edək ki, müsabiqə avqustun 25-dən başlayacaq və komandalar 3 mərhələ üzrə güclərini sınayacaq.





# Şəhid və qazi övladlarının iştirakı ilə təşkil olunan "Zəfər düşərgəsi" başa çatıb

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən şəhid və qazi övladları üçün "Zəfər düşərgəsi" başa çatıb.



AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, üç gün davam edən düşərgənin ilk günündə iştirakçılar Şahbuz rayonunda yerləşən Ağbulaq İstirahət Mərkəzi ilə tanış olublar. Naxçıvan şəhərindən dəvət edilmiş psixoloq tərəfindən onlarla psixoloji seanslar aparılıb. Günün ikinci yarısında isə uşaqların vaxtının əyləncəli təşkili məqsədilə yapon kağız sənəti "oriqami" üzrə ustad dərsi keçirilib. Birinci günün sonunda uşaqlar üçün film nümayişi də təşkil olunub.

"Zəfər düşərgəsi"nin ikinci günündə Naxçıvan Dövlət Kukla Teatrının düşərgəyə gəlişi azyaşlı iştirakçılar tərəfindən böyük sevinclə qarşılanıb. Günün birinci yarısında kukla tamaşaları ilə yanaşı, sosial könüllülərin iştirakı ilə uşaqlar üçün müxtəlif əyləncəli oyunlar da təşkil edilib. Günün ikinci yarısında isə "Zəfər düşərgəsi"ndə sağlamlıq imkanları məhdud uşaqlardan ibarət "Ümid" musiqi qrupunun və Şahbuz Rayon Mədəniyyət Şöbəsinin "Batabat" instrumental ansamblının konsert proqramı olub.

Çay süfrəsi ətrafında keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev bildirib ki, müharibədən zərərçəkmiş insanlara, xüsusən də şəhid ailələrinə, qazilərə hərtərəfli qayğı Azərbaycan dövlətinin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Bu baxımdan, qazi və şəhid ailələrinin sosial müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikamızda sistemli və ardıcıl xarakter daşıyır, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir. Nazir qeyd edib ki, Vətən müharibəsindən sonra bu tədbirlərin əhatə dairəsi daha da genişləndirilib, keçirilən tədbirlərdə şəhid ailələlərinin, qazilərimizin iştirakı ənənəvi xarakter alıb. "Zəfər düşərgəsi" layihəsi də Vətən müharibəsində əldə edilmiş tarixi qələbəyə ithaf olunub.

Daha sonra Naxçıvan Muxtar Respublikasının Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov da çıxış edərək "Zəfər düşərgəsi"nin əhəmiyyətindən danışıb. Anar İbrahimov qeyd edib ki, bu kimi tədbirlər həm də gənclərə vətənpərvərlik ruhunun aşılanması və onların bu istiqamətdə formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Vətən müharibəsində qazanılan tarixi zəfər də ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi muxtar respublikamızda formalaşmış dövlət-xalq-ordu birliyinin layiqli nəticəsidir.

Tədbirdə uşaqlara çoxsaylı hədiyyələr təqdim olunub.

"Zəfər düşərgəsi"nin sonuncu günü də iştirakçılar üçün yaddaqalan olub. Həmin gün düşərgə iştirakçıları müxtəlif əyləncəli oyunlarda, rəsm və milli yeməklərin hazırlanması üzrə keçirilən ustad dərslərində həvəslə iştirak ediblər.




# Azərbaycan hərbçiləri Beynəlxalq Ordu Oyunlarında iştirak edirlər

Moskva vilayətinin Kubinka qəsəbəsində "Armiya-2021" Beynəlxalq Hərbi-Texniki Forumu və "ARMİ-2021" 7-ci Beynəlxalq Ordu Oyunlarının təntənəli açılışı olub.

Açılış mərasimində Azərbaycanı müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov təmsil edib.

AZƏRTAC xəbər verir ki, tədbirin açılış mərasimində Rusiya Prezidenti Vladimir Putin də iştirak edib.

"ARMİ-2021" oyunlarında 34 növdə yarışlar keçiriləcək. Azərbaycan hərbçiləri "Tank biatlonu" yarışlarına qatılacaq və Belarus, Qazaxıstan, Serbiya ilə eyni qrupda mübarizə aparacaqlar.

Bundan əlavə, hərbçilərimiz Alabino poliqonundakı "Dostluq Evi"ndə keçirilən "Mədəniyyət Ordusu" müsabiqəsində də iştirak edir. "Dostluq Evi"ndə Azərbaycanın hərb, dövlətçilik tarixi və mədəniyyətini əks etdirən stend açılıb.

"ARMİ-2121" oyunları sentyabrın 4-dək davam edəcək.

# Babək rayonunda şəhid və qazilərimizin medalları təqdim olunub

Babək Rayon İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Babək Rayon İdarəsinin təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə və qazimizə orden və medallar təqdim edilib.



AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, tədbirdən əvvəl Vətən müharibəsində və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxışında vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Babək rayonundan olan 16 əsgər və zabit şəhidlik zirvəsinə ucalıb. Rayonun Qahab kəndindən baş leytenant Abbasəli İsmayılov, Nəzərabad kəndindən leytenant Elvin Məmmədov və Güznüt kəndindən leytenant Ramil Əliyev belə qəhrəman oğullarımızdandır. Müharibənin ilk günlərindən döyüşə qatılan Kərimbəyli kənd sakini leytenant Cövdət Əliyev torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə sağlamlığını itirən minlərlə hərbçilərimizdən biridir.

İcra başçısı ölkəmizdə və muxtar respublikada şəhid ailələrinə göstərilən dövlət qayğısından da bəhs edib, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 dekabr tarixli Sərəncamı ilə Vətən müharibəsi zamanı Azərbaycan Respublikası ərazilərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş, şəhid olmuş və xəsarət almış bir qrup şəxsin orden və medallarla təltif olunduğunu xatırladıb. Ölkəmizin ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş şəhid baş leytenant Abbasəli İsmayılovun, şəhid leytenant Elvin Məmmədovun, şəhid leytenant Ramil Əliyevin Prezident tərəfindən layiq görüldüyü "Füzulinin azad olunmasına görə" medalları onların valideynlərinə, döyüşlərdə xəsarət alaraq yaralanan leytenant Cövdət Əliyevə təqdim olunub.

Sonda şəhid leytenant Elvin Məmmədovun atası Etibar Məmmədov göstərilən diqqətə görə dövlətimizə minnətdarlıq edib.

# Çinin "On the road" şirkəti Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sənədli filmin çəkilişinə başlayıb








Çinin "On the road" şirkəti Azərbaycanın işğaldan azad edilmiş əraziləri ilə bağlı sənədli filmin çəkilişinə başlayıb.

AZƏRTAC xəbər verir ki, bu məqsədlə şirkətin çəkiliş qrupu ilk olaraq Şuşa şəhərinə səfər edib. Şəhərin müxtəlif ərazilərində çəkilişlər edən qonaqlara Şuşanın tarixi, memarlıq abidələri, 1992-ci ildə Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilməsi, 30 ilə yaxın dövr ərzində erməni vandalizminə məruz qalması və 2020-ci ilin noyabrında Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildikdən sonra bərpa-quruculuq işlərinə başlanılması barədə məlumat verilib.

Əvvəlcə Şuşanın mərkəzi meydanında görkəmli bəstəkar, musiqişünas, ictimai xadim Üzeyir Hacıbəyli, şairə, rəssam və ictimai xadim Xurşidbanu Natəvan və Xalq artisti Bülbülün güllələnmiş heykəllərini ziyarət edən çəkiliş qrupuna bu dahi şəxsiyyətlərin həyat və yaradıcılıqları haqqında məlumat verilib. Bildirilib ki, ermənilər tuncdan hazırlanmış heykəllərdən gəlir əldə etmək məqsədilə onları əvvəlcə İrəvana, sonra da Gürcüstana aparıblar. Gürcüstanda yaşayan həmvətənlərimiz təsadüfən bu heykəlləri görüblər. Bununla bağlı müvafiq qurumlara məlumat verilib. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər satın alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə heykəllər öz əvvəlki yerinə qaytarılıb.

Sonra qonaqlar Şuşa şəhərindəki qədim məhəllələrdə, Aşağı və Yuxarı Gövhərağa məscidlərində olublar. Məlumat verilib ki, 30 illik işğal dövründə dini abidələr, o cümlədən məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb.

Çinli nümayəndələr Cıdır düzündə də çəkiliş aparıb, buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər. Sonda qala divarları ilə tanış olan çəkiliş qrupuna məlumat verilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Sənədli filmin çəkilişində iştirak edən Can Sinyu AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində deyib: "Biz dünyanın bir çox yerlərinə səfər edirik. Sizin regiona hər zaman marağım olub. Əsasən də müharibə dövründə bu regionu diqqətdə saxlamışam. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olduğu üçün biz müharibədən sonrakı vəziyyəti bilmək istəyirik. Qarabağa səfərimizin məqsədi burada həyata keçirilən yenidənqurma işləri ilə tanış olmaqdır".

Qeyd edək ki, Çin Xalq Respublikasından olan çəkiliş qrupu Şuşa şəhəri ilə yanaşı Zəngilan, Füzuli və Ağdamda da olacaqlar. Azərbaycanın işğaldan azad edilmiş əraziləri ilə bağlı çəkiləcək sənədli film Çinin SETV kanalında və bir sıra sosial şəbəkələrdə yayımlanacaq.

## *Van ZIGUAN:* "Şuşa nəinki mədəni və tarixi, həm də böyük strateji əhəmiyyətə malik şəhərdir"



"Biz dünyanın çox şəhərlərində olmuşuq. Amma Şuşa fərqlidir, strateji əhəmiyyətinə görə çox unikal bir şəhərdir".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sənədli film çəkilişi ilə bağlı Şuşaya səfər edən Çinin "On the road" şirkətinin nümayəndəsi Van Zıguan deyib. O, Şuşanın çox gözəl şəhər olduğunu bildirib: "Burada çoxlu tarixi abidələr var. Şuşanın nəinki mədəni və tarixi, eləcə də böyük strateji əhəmiyyəti var. Mən hazırda bir dağın, qalanın başında dayanmışam və çox gözəl mənzərəni seyr edə bilirəm. Şuşaya nəzarət edən, bütün Qarabağa nəzarət edir".

Van Zıguan deyib ki, çəkiliş qrupu Şuşanın tarixini, burada baş verənləri öyrənmək məqsədilə gəlib: "Filmimizdə şuşalıların öz evlərinə necə və nə zaman dönə biləcəkləri və Şuşada keçmiş həyatlarına necə qayıdacaqları yer alacaq. Eyni zamanda, Azərbaycan dövlətinin həyata keçirdiyi bərpa və yenidənqurma işlərini də lentə alacağıq".




## *ANAMA:* "Ötən həftə 147 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, avqustun 16-dan 21-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 110, tank əleyhinə 2 mina və 54 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 147 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Şeyxülislam Allahşükür Paşazadə Çeçenistanda səfərdədir

Avqustun 22-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyasının Qroznı şəhərinə yola düşüb.



İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfərin əsas məqsədi bu gün, avqustun 23-də Çeçenistan Respublikasının birinci prezidenti, Rusiya Qəhrəmanı Əhməd Kadırovun anadan olmasının 70-ci ildönümü münasibətilə keçiriləcək tədbirdə iştirak etməkdir.

QMİ-nin sədri, Qafqaz Xalqları Ali Dini Şurasının sədri, Şeyxülislam Allahşükür Paşazadə Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri - Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftiləri ilə görüşüb. Səmimi dostluq şəraitində keçən görüşdə Çeçenistan Respublikasının birinci prezidenti Əhməd Kadırovun məzarını birgə ziyarət etdikdən sonra Şuranın iclasını keçirmək qərarlaşdırılıb.

# Dağ Kəsəməndə "Xarıbülbül" və "Şəhidlər" abidə kompleksinin açılışı olub





Ağstafanın ən böyük kəndlərindən olan Dağ Kəsəməndə şəhidlərin xatirəsinə "Xarıbülbül" abidəsi və "Şəhidlər" abidə kompleksi inşa edilib.

Rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanları rəhbərlərinin, şəhid ailələrinin, qazi və Qarabağ müharibəsi veteranlarının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən açılış mərasimində çıxış edənlər ölkəmizdə şəhid ailələrinə, qazilərə göstərilən yüksək dövlət qayğıkeşliyindən danışmışlar.

Sonra Kəsəmən kəndindən olan birinci Qarabağ və Vətən müharibələri şəhidlərinin xatirə lövhələri həkk olunmuş kompleksin və "Xarıbülbül" abidəsinin üzərindən ağ örtük götürülmüş, iştirakçılar abidə önünə gül dəstələri düzmüşlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Yolumuz abad, işimiz avand

## Yeni avtomobil yollarının coğrafiyası genişlənməkdə davam edir

*Əvvəli 1-ci səh.*



Hesabatda bildirilir ki, göstərilən dövrdə AAYDA tərəfindən Bakıda ümumi uzunluğu 64,1 kilometr olan avtomobil yolları yenidən qurulmuş və təmir edilmişdir, həmçinin paytaxtın 12 rayonunda və qəsəbələrində tikinti-təmir işləri aparılmışdır. Bununla yanaşı, Qala-Pirallahı avtomobil yolunun üzərində yerüstü piyada keçidi tikilərək paytaxt sakinlərinin ixtiyarına verilmişdir. Həmin dövrdə paytaxtın Xətai rayonunda "Ağ şəhər" layihəsi çərçivəsində yolların tikintisi və Nobel prospekti üzərində piyada keçidinin inşası da başa çatdırılmışdır. Eyni zamanda agentliyə ayrılmış dövlət vəsaiti hesabına 12 kəndarası avtomobil yolunun layihələndirilməsi, Şamaxı rayonunun daxili yollarının yenidən qurulması və təmiri işləri davam etdirilmişdir.

Birinci yarımillikdə Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Ağsu çayı ilə kəsişməsində və Astaraçay üzərində körpülər salınmış, Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsi yenidən qurulmuş, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 204-207-ci kilometrlik hissəsinin və Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə sərhədində Samur və Xanoba keçid məntəqələri arasında 24,5 kilometrlik avtomobil yolunun inşası yekunlaşmışdır.

Hesabatda o da bildirilir ki, həmin dövrdə Bakı-Böyük Kəsik dəmir yolu xəttinin Tovuz şəhərindən keçən hissəsində avtomobillərin və piyadaların rahat hərəkətini təmin edəcək yeni yol qovşağının, Susay-Xınalıq, eləcə də Abşeron rayonu ərazisində yerləşən palçıq vulkanları ətrafındakı müasir turizm infrastrukturuna aparan yeni avtomobil yollarının tikintisi davam etmişdir.

2021-ci ilin 6 ayı ərzində həmçinin xarici kredit vəsaiti hesabına M-2 magistral avtomobil yolunun Gəncə-Gürcüstan Respublikası ilə dövlət sərhədi hissəsinin 4 zolağa genişləndirilməsi və M-5 magistral avtomobil yolunun Yevlax-Şəki hissəsinin yenidən qurulması layihələri üzrə işlər aparılmışdır. Asiya İnkişaf Bankı (AİB) ilə imzalanmış kredit sazişi çərçivəsində həyata keçirilən "M-5 Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Yevlax-Şəki hissəsinin tikintisi" və "R-32 Ucar-Zərdab-Ağcabədi avtomobil yolunun tikintisi" layihəsi üzrə yerinə yetirilmiş işlərin həcmi başa çatmışdır.

Söz düşmüşkən qeyd edək ki, hesabata görə, AİB-lə bağlanmış kredit sazişi çərçivəsində Şəki, Yevlax, Ucar, Zərdab, Ağcabədi rayonlarında 61,68 kilometr uzunluğunda 10 kənd yolu yenidən qurulmuş, Yevlax və Şəki rayonlarında nəzərdə tutulan 18,94 kilometrlik kənd yollarında işlər yekunlaşmış, 42,74 kilometrlik digər yollarda yenidənqurma işlərinin icrası 85 faiz icra olunmuşdur.

Yolların kənarlarındakı yaşıllıq isə ətrafa xüsusi görkəm verir. Hazırda AAYDA-nın nəznindəki "Avtomobil Yollarının Yaşıllaşdırılması" MMC 1600 kilometr magistral, 1824 kilometr respublika əhəmiyyətli, ümumilikdə 3424 kilometr avtomobil yolunun təhkim zolağındakı yaşıllıqlara xidmət göstərir. Bu yaşıllıqlarda isə 1,5 milyon, o cümlədən 1,3 milyon ədəd çoxillik ağac var. Həmin ərazilərdə təkcə cari ilin birinci yarısında 72 mindən çox, ümumilikdə 443,2 hektar ərazidə 265,8 min ədəd müxtəlif növ ağac və kol əkilmişdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bu il Qax rayonunda 7 subartezian quyusu qazılacaq

Azərbaycan Prezidentinin "Balakən, Qax, Şəki və Zaqatala rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 2021-ci il 10 avqust tarixli Sərəncamının icrası çərçivəsində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən bu il Qax rayonunda 7 subartezian quyusunun qazılması nəzərdə tutulub.



Bu quyuların istismara verilməsi nəticəsində 7,6 min nəfərdən çox əhalinin yaşadığı 7 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatı daha da yaxşılaşdırılacaq, həmçinin əhalinin içməli suya tələbatı ödəniləcək.

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Qax rayon Suvarma Sistemləri İdarəsinin baş mühəndisi Nəzir Mustafayev məlumat verib.

Baş mühəndisin sözlərinə görə, subartezian quyularının qazılacağı Ağyazı, Amanlı, Cəlayir, Güllük, Qaratala, Şixlar və Tasmalı kəndlərində yerlər artıq müəyyənləşdirilib, sənədləşmə işləri aparılıb. Quyuların qazıntısına yaxın vaxtlarda başlanılacaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamların icrası çərçivəsində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən 2013-2020-ci illər ərzində Qax rayonunda 91 subartezian və artezian quyusu qazılaraq əhalinin istifadəsinə verilib.

# Biz birlikdə güclüyük!

# Hər bir insanın qaydalara ciddi əməl etməsi vacibdir

## Yalnız bu yolla koronavirusdan qorunmaq mümkündür

*Əvvəli 1-ci səh.*





O vurğulayıb ki, təşviqat işləri elə qurulmalıdır ki, insanlar vaksinasiya prosesinə kütləvi cəlb edilsinlər: "Yalnız əhalinin böyük hissəsi peyvənd olunarsa, biz epidemioloji zənciri qıra bilərik. Bundan sonra indiki kimi yüksək yoluxmalar olmayacaq".

Hazırda ölkəmizin bütün şəhər və rayonlarında, ən ucqar kəndlərində belə insanlar xüsusi xəstəxanalarda, poliklinika və tibb məntəqələrində, səyyar avtobuslarda COVID-19 xəstəliyi əleyhinə vaksinasiya olunurlar. Etiraf edək ki, əvvəllər bu peyvəndləmə əməliyyatına şübhə ilə yanaşanlar, ətrafında və yaxınlarında bu gözəgörünməz virusun fəsadlarından dünyasını dəyişənləri, qəfil ölümün pəncəsindən zorla qurtula bilənləri görəndən sonra fikirlərində yanıldıqlarını anlayıblar. İndi nəinki həmin adamlar özləri, hətta bu işə şübhə ilə yanaşan bir neçəsini də özləri ilə peyvənd etdirməyə gətirirlər.

Azərbaycan Tibb Unversitetinin dosenti, tibb üzrə fəlsəfə doktoru Şöhrət Qasımov bildirir ki, COVID-19 ilə mübarizədə vaksinin vacibliyi barədə dünyada modern tibbinə və bunu müdafiə edən həkimlərin fikirlərinə inanmaq lazımdır. Bu bəladan az itki ilə qurtarmağın yeganə yolu peyvənd edilməkdən, həkim tövsiyələrinə və Operativ Qərargahın irəli sürdüyü qaydalara ciddi əməl etməkdən keçir. Mən də, övladlarım da, hətta nəvələrim də vaksinin hər iki dozasını etdirmişik.

Fakt göz qabağındadır: Operativ Qərargahın keçirdiyi brifinqdə açıq-aşkar bildirildi ki, süni tənəffüs aparatına qoşulanların 97 faizi, vəfat edənlərin 99 faizi peyvənd vurdurmayanlardır. Peyvənd olunan şəxslərdən 0,6 faizi hospitalizasiya olunub. O ki qaldı vaksin olmayanlara və ümumilikdə ona qarşı çıxanlara, deyirəm ki, vaksinə qarşı hansı motivlə çıxıb-çıxmamağınız şəxsi fikrinizdi. Amma xatırladım ki, illər bundan öncə pensilin və müxtəlif peyvəndlər ortaya çıxanda da ona qarşı olanlar çox idi. Sonra vəziyyət elə gətirdi ki, insan özündə hansısa narahatlıq hiss edəndə, pensilin vurdururdu. Bu gün uşaqlara bütün peyvəndləri etdirənlər mütləq mənada çoxluq təşkil edir. Bu, düzgün yoldur. İnanıram ki, COVID-19 vaksininə qarşı olanlar çox qısa vaxtda vaksin üçün tibb mərkəzlərinə və poliklinikalara tələsəcəklər.

Bakı şəhər sakinləri, uzun illər dövlət qulluğunda çalışmış Telman Musayev və Nurəddin Adıgözəlov bildirir ki, keçən il bu vaxtlar hamı arzu edirdi ki, bu dəhşətli pandemiyaya qarşı peyvənd tapılsın. Şükürlər olsun ki, dövlət başçısının diqqət və qayğısı nəticəsində bu virusun geniş yayılmaması üçün qabaqlayıcı tədbirlər görüldü. Yaradılan modul tipli xəstəxanalar və görülən digər tədbirlər buna bariz nümunədir. Bizdən də əvvəl bu bəlaya tuş gəlmiş ölkələrdə vaksin tapılmadığı halda, Azərbaycanda peyvəndləmə həyata keçirildi. Bir ay bundan öncəyədək yoluxmanın əhali arasında tamamilə azalmasına səbəb də pevəndləmə oldu. Vaksinasiya bizi xəstəlikdən tam qoruya bilməsə də, ağırlaşma ehtimalı olmur. Karantinin tətbiq olunmasını və küçədə maska taxmaq istəmiriksə, peyvəndlənmək lazımdır.

Yoluxmalar və ölüm halları bölgələrdə də çoxalıb. Bu sahədə həyəcan təbili çalınan rayonlarda əhali kütləvi surətdə peyvənd olunur. Ölkəmizin digər bölgələrində olduğu kimi, Şəmkir rayon sakinləri də COVID-19-a qarşı peyvəndləməyə cəlb edilib. Rayon mərkəzi xəstəxanasında TƏBİB-in təlimatlarına uyğun zəruri şərait yaradılıb. Birinci peyvəndləməni uğurla başa çatdıran tibb işçiləri indi hər gün 100-150 nəfərə xidmət göstərirlər. Hətta səyyar həkim briqadaları ən ucqar kəndlərdə, adamların çalışdıqları sahələrdə vaksinləmə prosesini həyata keçirir. Təzəkənd kəndinin sakinləri Nizami Əliyev, Vüqar Həsənov, Füzuli Süleymanov və başqaları bildirirlər ki, peyvənd olunanlar arasında biz və ailə üzvlərimiz də varıq. Heç bir narahatlığımız yoxdur. Dövlətimiz sağ olsun ki, əhalinin sağlamlığı üçün belə gözəl addım atıb, insanlar pulsuz peyvəndlə təmin olunurlar.

Bu proses Qazax, Tovuz , Goranboy, Gəncə, Şirvan, Salyan, Sabirabad, Biləsuvar, Cəlilabad, Lənkəran, Sumqayıt, Şəki, Zaqatala və digər yerlərdə də yüksək səviyyədə davam etdirilir. Məlumata görə, ölkə ərazisində və ölkənin şimal-qərb bölgəsində yeni növ koronavirus infeksiyasına yoluxanların sayının artması ilə əlaqədar Balakən Rayon Mərkəzi Xəstəxanası karantin rejiminə uyğun fəaliyyət göstərəcək.

Xəstəxanada fəaliyyət göstərən Təcilli Tibbi Yardım, poliklinika və doğum şöbəsi istisna olmaqla, digər şöbələrin Zaqatala Rayon Mərkəzi Xəstəxanasına köçürülməsi nəzərdə tutulur.

Azərbaycan Prezidentinin tapşırığına əsasən, insanların sağlamlığına qayğını artırmaq və COVID-19 pandemiyasına qarşı mübarizəni gücləndirmək məqsədilə ölkəmizdə vaksin yaradılacaq. Bu barədə mətbuata açıqlamasında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin İdarə Heyətinin sədri Ramin Bayramlı deyib: "Uzun illərdən sonra ilk dəfə ölkəmizdə vaksin yaradılması, COVID-19 daxil olmaqla, infeksion xəstəliklərə qarşı yeni mübarizə tədbirlərinin işlənib hazırlanması, diaqnostikası, kimya terapiyası üçün hüceyrə kulturası tədqiqatlarına start verilib".

Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq Elmi-Tədqiqat İnstitutu və Səhiyyə Nazirliyinin V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun birgə təşkil etdiyi "Hüceyrə kulturası və krioprezervasiyası" mövzusunda ustad dərslərinə başlanılıb. Proqramda nəzəri və praktik biliklər nümayiş etdirilir. Nəzəri hissə professor Adil Allahverdiyev tərəfindən, praktiki hissə dosent M.Bağırova, dosent Ş.Şıxəliyeva, Baytarlıq Elmi-Tədqiqat İnstitutunun virusologiya şöbəsinin müdiri dosent Kubra Yusifova və Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə elmi təcrübə məqsədilə Türkiyədən Azərbaycana dəvət olunmuş Yıldız Teknik Universitetinin Hüceyrə kulturası və toxuma mühəndisliyi laboratoriyasının elmi əməkdaşı Səhər Dinpərvər tərəfindən həyata keçirilir.

Proqramın həyata keçirilməsində əsas məqsəd yaxın gələcəkdə COVID-19 başda olmaqla infeksion xəstəliklərə qarşı yeni mübarizə tədbirlərinin işlənib hazırlanması, diaqnostika, kimya terapiyası və xüsusilə vaksin yaradılması kimi sahələrdə tədqiqatlar aparmaqdır. Bu məqsədə nail olmaq üçün tədqiqatların əsasını təşkil edən hüceyrə kulturası modellərinin yaradılması və bu sahədə mütəxəssislərin hazırlanması nəzərdə tutulur.

Ekspertlərin fikrincə. hazırda ölkəmizdə peyvəndlənmə səviyyəsi 24 faizdir. Əgər bu, 60 faizə çatarsa, demək olar ki, Azərbaycanda pandemiya bitmiş hesab ediləcək. Ona görə də hər kəsin peyvəndlənmədə iştirakı, genişlənməkdə olan COVID-19 pandemiyasının qarşısını almaq və sağlamlığımızı qorumaq üçün Nazirlər Kabineti yanında Operativ Qərargahın irəli sürdüyü qayda və tələblərə ciddi əməl edilməsi vacibdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Şəkidə bugünədək vətəndaşlara 107 min dozadan çox vaksin vurulub

Son vaxtlar karantin rejiminin yumşaldılması, qadağaların götürülməsi, şənlik mərasimlərində qaydalara düzgün əməl olunmaması, həmçinin vətəndaşların koronavirus infeksiyası ilə mübarizədə arxayınçılığa yol vermələri səbəbindən ölkə ərazisində təhlükəli virusa yoluxma halları yenidən artmağa başlayıb. Virusa yeni yoluxan vətəndaşların sayı artıq 4 minə çatır. Aparılan təhlillər onu göstərir ki, əhalinin COVID-19 infeksiyasına qarşı peyvənd olunması koronavirus pandemiyasının qarşısının alınmasında ən mühüm amillərdən biridir.



Hazırda Şəki rayonunda da əhalinin peyvənd olunması prosesi davam edir.

Şəhər icra hakimiyyətində yaradılan qərargahdan AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, prosesə başlandığı gündən indiyədək Şəki rayonu üzrə vətəndaşlara 107 min 438 doza vaksin vurulub. O cümlədən indiyədək birinci mərhələ üzrə peyvənd olunan şəxslərin ümumi sayı 66 min 364 nəfər, ikinci mərhələ üzrə peyvənd olunanların sayı isə 41 min 74 nəfərdir.

Yaş qrupları üzrə indiyədək Şəki rayonunda 65 yaşdan yuxarı vətəndaşlara 10 min 112 doza, 50-64 yaş arasında vətəndaşlara 35 min 911 doza, 50 yaşadək vətəndaşlara isə 61 min 415 doza vaksin vurulub.

Əhalinin peyvəndlənməsi Şəki Rayon Mərkəzi Xəstəxanasının binasında xüsusi olaraq ayrılmış vaksin otaqlarında, həmçinin bir neçə kənd həkim məntəqəsində həyata keçirilir.

# Baş Prokurorluq və DİN vətəndaşlara saxta COVID-19 pasportu verilməsi ilə bağlı keçirilən əməliyyatlar barədə məlumat yayıb




Azərbaycan Respublikası Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi bir neçə tibb müəssisəsində pul müqabilində vətəndaşlara saxta COVID-19 pasportu verilməsi ilə bağlı keçirilən əməliyyat barədə məlumat yayıb.

Hər iki qurumun Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, verilən məlumatlar və aparılan yoxlamalar nəticəsində paytaxtda daha bir neçə tibb müəssisəsində pul müqabilində bəzi vətəndaşlara dair məlumatların vaksinasiya prosesindən keçmədən "e-TƏBİB" elektron qeydiyyat sisteminə yerləşdirilməsi və bununla da həmin şəxslərin guya vaksin olunmaları ilə bağlı saxta COVID-19 pasportu ilə təmin edilmələri məlum olub.

Həyata keçirilən ilk əməliyyat zamanı müəyyən olunub ki, Xəzər rayonunun Binə qəsəbəsində yerləşən 29 saylı Birləşmiş Şəhər Xəstəxanasının tibb bacıları Ü.Abbasova, S.Allahverdiyeva, F.Nəhmətova, həmin müəssisəsinin kompüter qeydiyyatçıları Ə.Hüseynova, S.Dadaşzadə və Səbail rayonunda yerləşən 33 saylı şəhər poliklinikasının əməkdaşı Elnur Əliyevlə əlbir olaraq vətəndaşlardan 300 manat məbləğində pul alıb onların xəstəxanaya belə gəlmədən guya vaksinasiyadan keçib peyvənd olunmalarına dair saxta sənəd təqdim ediblər. Həmin şəxslərin eyni üsulla çoxsaylı vətəndaşlardan pul alaraq onları peyvənd olunmadıqları halda "e-TƏBİB" elektron qeydiyyat sistemində vaksin edilmiş şəxslərin siyahısına daxil etdikləri müəyyənləşdirilib.

Analoji hal Sabunçu rayonunun Maştağa qəsəbəsində yerləşən 7 saylı Birləşmiş Şəhər Xəstəxanası və Yasamal rayonunda yerləşən 3 saylı şəhər poliklinikasında da aşkar edilib. Müəyyən olunub ki, həmin müəssisələrdə tibb bacıları işləyən S.Mahmudova və A.Bağırova hər doza vaksin üçün 50-100 manat müqabilində ayrı-ayrı vətəndaşlar barədə guya onların vaksin olunmalarını özündə əks etdirən saxta məlumatları "e-TƏBİB" elektron qeydiyyat sisteminə daxil ediblər. Bununla da adları çəkilən tibb bacıları pul aldıqları vətəndaşlara peyvənd olunmadan onlara vaksin vurulduğu barədə saxta sənədlər təqdim ediblər.

Faktlarla bağlı Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin istintaq və təhqiqat idarəsində istintaq araşdırmaları aparılır. İş üzrə əhəmiyyət kəsb edən halların, göstərilən qanun pozuntularında hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi vətəndaşlara bir daha müraciət edərək koronavirus əleyhinə peyvənd vurulması, habelə COVID-19 testinin nəticələri ilə bağlı vətəndaşlara saxta sənəd verilməsi halları ilə üzləşdikdə 102 Xidməti - Zəng Mərkəzi, 961 nömrəli Çağrı Mərkəzi, 161 nömrəli Qaynar xətt əlaqə mərkəzi, o cümlədən Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdəki səhifələri vasitəsilə məlumat verilməsini xahiş edir.

Ölkəmizdə koronavirus pandemiyası əleyhinə aparılan vaksinasiya prosesinə qanunsuz yollarla müdaxilə edilməsi hallarına qarşı Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən qanunvericiliklə nəzərdə tutulan qaydada sərt mübarizə tədbirləri bundan sonra da qətiyyətlə davam etdiriləcək.

# Bakıda birgə reydlər daha da gücləndirilib

Son günlərdə ölkədə koronavirus pandemiyasına yoluxanların sayında kəskin artım qeydə alınması ciddi narahatçılığa səbəb olub. Bununla əlaqədar paytaxt Bakı şəhərində vətəndaşlarımızın bu xəstəlikdən qorunması və onun yayılmasının qarşısının alınması üçün genişmiqyaslı kompleks tədbirlər həyata keçirilir.







Bakı Şəhər İcra Hakimiyyətindən (BŞİH) AZƏRTAC-a bildiriblər ki, tədbirlər çərçivəsində BŞİH və Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən paytaxtın bütün rayonlarında ictimai nəqliyyat, ticarət obyektlərində və digər qapalı yerlərdə birgə reydlər davam etdirilir. Reydlər zamanı Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və tövsiyələrinə riayət edilməsinin, virusa yoluxma hallarının qarşısının alınması məqsədilə görülən tədbirlərin vəziyyətinin, mövcud obyektlərdə qoruyucu maskalardan istifadənin vəziyyəti yoxlanılır, insanlar arasında sosial məsafənin qorunması məqsədilə maarifləndirmə işləri aparılır və tibbi maskalar paylanılır.

Müəyyən edilib ki, bəzi insanlar arxayınlaşaraq tibbi maskalardan istifadə etmir, ən başlıcası isə onların sağlamlığının qorunmasına xidmət edən vaksinasiya məsələlərinə laqeyd yanaşırlar.

Reydlər zamanı aşkar edilən nöqsanlar və çatışmazlıqlar yerindəcə aradan qaldırılır, pozuntulara yol verən ayrı-ayrı vətəndaşlar, sahibkarlıq subyektlərinin vəzifəli şəxsləri və digər cavabdehlərə qarşı cərimə tədbirləri tətbiq olunur, yeni növ koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə vətəndaşlara ilk növbədə virus əleyhinə vaksinasiya olunmağın vacibliyi izah edilir.

Paytaxtda nəqliyyat, ticarət obyektləri və digər qapalı yerlərdə koronavirus əleyhinə qaydaların tələblərinə ciddi əməl olunmasına nəzarət və birgə reydlər davam etdiriləcəkdir.

# Azərbaycanda koronavirus infeksiyasına 2945 yeni yoluxma faktı qeydə alınıb

Son sutka ərzində Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 2945 yoluxma faktı qeydə alınıb, 1027 nəfər müalicə olunaraq sağalıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 32 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 394 min 451 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 346 min 810 nəfər müalicə olunaraq sağalıb, 5340 nəfər vəfat edib. Aktiv xəstə sayı 42 min 301 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 min 79, bugünə qədər isə ümumilikdə 4 milyon 329 min 920 test icra olunub.

# Peyvənd olunanların sayı açıqlanıb

Avqustun 23-də Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı 348 vaksin vurulub.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 279, ikinci mərhələ üzrə peyvənd edilənlərin sayı 69 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 6 milyon 170 min 724-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 3 milyon 713 min 422, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 2 milyon 457 min 302 nəfərdir.




# XVI Tokio Yay Paralimpiya Oyunları

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ PARALİMPİYA KOMİTƏSİ

# Dünyanın diqqəti yenə Tokiodadır

## Bu gün XVI Yay Paralimpiya Oyunları başlayır



Bu gün dünyanın daha böyük bir mötəbər idman yarışı - XVI Yay Paralimpiya Oyunları başlayır. Sentyabrın 5-dək Tokio bu dəfə planetin 170 ölkəsindən əlilliyi olan 4 mindən çox idmançının mübarizə aparacağı idman festivalına evsahibliyi edəcək.

Fiziki cəhətdən məhdudiyyətləri olan idmançıların beynəlxalq arenada yarışmaları ingilis neyrocərrahı Lüdviq Quttmanın adı ilə bağlıdır. O, çoxəsrlik stereotipləri aradan qaldıraraq idmanı onurğa beyni zədələnmiş insanların səhhətinin bərpası prosesinə daxil etmişdir.

Doktor Quttman əməli surətdə sübuta yetirmişdir ki, idman fiziki qüsurlara malik insanlara uğurlu həyat fəaliyyəti üçün şərait yaradır, onların psixi tarazlığını bərpa edir, qüsurlarına baxmayaraq, onlara tam dəyərli həyata qayıtmaq imkanı verir. Lüdviq Quttman İkinci Dünya müharibəsi zamanı İngiltərənin Eylsberi şəhərindəki Stok-Mandevil hospitalının bazasında onurğa zədələrinin müalicəsi üçün mərkəz açmışdır. Burada əlil arabalarında oturan idmançılar üçün oxatma üzrə ilk yarışlar keçirilmişdir. İflic olmuş 16 kişi və qadından, keçmiş hərbi qulluqçulardan ibarət qrup







isə 1948-ci il iyulun 28-də idmanın bütün tarixi ərzində ilk dəfə olaraq əllərinə idman aləti götürmüşdür.

Bunun ardınca - 1952-ci ildə Hollandiyanın keçmiş hərbi qulluqçuları bu hərəkata qoşularaq dayaq-hərəkət aparatı pozulmuş adamların Beynəlxalq İdman Federasiyasını yaratmışlar. 1956-cı ildə isə Lüdviq Quttman idmançıların xartiyasını hazırlamış, əlillər idmanının daha da inkişaf etməsi üçün əsaslar formalaşdırmışdır.

Hərəkat bununla da qurtarmamışdır. 1960-cı ildə Ümumdünya Hərbi Qulluqçular Federasiyasının himayəsi ilə beynəlxalq işçi qrup yaradılmışdır. Elə həmin il Romada əlillərin ilk beynəlxalq yarışları keçirilmiş və yarışlarda 23 ölkədən 400 əlil idmançı iştirak etmişdir.

1964-cü ildə isə əlillərin Beynəlxalq İdman Təşkilatı yaradılmış və 16 ölkə bu təşkilata qoşulmuşdur. 1964-cü ildə Tokioda idmanın 7 növü üzrə keçirilən yarışlarda ilk dəfə olaraq rəsmi surətdə bayraq qaldırılmış, himn çalınmış və oyunların rəsmi emblemi elan edilmişdir. Zəka, möhkəm bədən, yenilməz ruh rəmzi kimi qırmızı, göy və yaşıl yarımkürələr dünya paralimpiya hərəkatının qrafik rəmzi olmuşdur.

1972-ci ildə Kanadanın Toronto şəhərində keçirilən yarışlarda 44 ölkədən gəlmiş 1000-dən çox əlil mübarizə aparmışdır. Yarışlarda yalnız əlil arabasında oturan idmançılar iştirak edirdilər. 1976-cı ildən isə onurğa zədələri olan idmançılara digər məhdudiyyətləri olan idmançılar - gözdən əlil və ətrafları amputasiya edilmiş adamlar da qoşulmağa başladılar. Beləliklə, hər növbəti oyunlardan sonra iştirakçıların sayı artır, ölkələrin coğrafiyası genişlənir, proqrama yeni-yeni idman növləri daxil edilirdi.

1988-ci ildə başqa bir yenilik oldu. Cənubi Koreyanın paytaxtı Seulda keçirilmiş beynəlxalq oyunlarda əlil idmançılara sağlam olimpiyaçıların mübarizə apardıqları yay oyunlarının idman qurğularında yarışmaq hüququ verildi. Məhz həmin vaxtdan yarışlar sağlam olimpiyaçıların mübarizə apardıqları idman qurğularında keçirilməyə başladı. 1992-ci ildə isə təşkil edilən Beynəlxalq Paralimpiya Komitəsi onun hüquqi varisi oldu.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan da hərəkatdan kənarda qalmadı. Paralimpiyaçılarımız iştirak etdikləri 6 paralimpiyadada 38 medal qazandılar və şübhə etmirik ki, paralimpiya yığmamız növbəti dəfə də əldə edəcəkləri mükafatlarla bizi sevindirəcəklər.

"Tokio-2020"də ölkəmizi idmanın 6 növündə 47 kateqoriya üzrə rekord sayda - 36 idmançı təmsil edir. Atletlərimizin 24-ü kişi və 12-si qadındır. XVI Yay Paralimpiya Oyunlarının atletika yarışlarına Azərbaycanın 12 idmançısı (9 kişi və 3 qadın) qatılacaq. Kişi idmançılardan Samir Nəbiyev, Elvin Astanov (nüvəitələmə), Oloxan Musayev (nüvə itələmə və disk atma), Səid Nəcəfzadə, Kamil Əliyev, Orxan Aslanov (uzunluğa tullanma), Həmid Heydəri, Orxan Qasımov (nizəatma), Elmir Cəbrayılov (qaçış, 100 m, 400 m), qadın atletlərdən isə Yelena Çebuna (qaçış, 100 m), Yuliya Yanovskaya və Lamiyə Vəliyeva (qaçış 100 m, 400 m) medallar uğrunda mübarizə aparacaqlar.

Cüdo yarışlarında qadınların mübarizəsində Şəhanə Hacıyeva (48 kq), Bəsti Səfərova (52 kq), Sevda Vəliyeva (57 kq), Xanım Hüseynova (63 kq), Dürsədəf Kərimova (+70 kq) birincilik uğrunda tatami üzərinə çıxacaqlar. Kişilərin yarışında isə ölkəmizi Vüqar Şirinli (60 kq), Namiq Abaslı (66 kq), Ramil Qasımov (73 kq), Hüseyn Rəhimli (81 kq), Kənan Abdullaxanlı (100 kq) və İlham Zəkiyev (+100 kq) təmsil edəcəklər.

Parataekvondo yarışlarında 4 idmançımız mübarizə aparacaq. Qadınların yarışında Röyalə Fətəliyeva (49 kq), Aynur Məmmədova (+58 kq), kişilərin mübarizəsində İmaməddin Xəlilov (61 kq) və Əbülfəz Abuzərli (75 kq) dayanq üzərinə çıxacaqlar.

Üzgüçülük yarışlarında 2 kişi və 1 qadın təmsilçimiz gücünü sınayacaq. Raman Saleh 50 və 100 metr məsafələrə sərbəst, batterflay və arxası üstə üzgüçülük yarışlarına qatılacaq. Vəli İsrafilov isə 100 metr məsafəyə batterflay və brass üsulu ilə üzgüçülük yarışlarında iştirak edəcək. Qadın təmsilçimiz Dana Şandibina da 100 metr məsafəyə brass üsulu ilə üzgüçülük yarışlarında medal qazanmağa çalışacaq.

Pauerliftinq yarışlarında ölkəmizi Pərvin Məmmədov (49 kq), Nurlan Babacanov (97 kq), Elşən Hüseynov (107 kq) və Şamo Aslanov (+107 kq) təmsil edəcəklər. Güllə atıcılığı yarışlarında 2 idmançımız mübarizə aparacaq. Yelena Taranova 10, 25, 50, Kamran Zeynalov isə 10 və 50 metr məsafəyə atəşaçma yarışlarında güclərini sınayacaqlar.

Bu arada Tokio Yay Paralimpiya Oyunlarının təşkilatçıları Yaponiyanın 47 prefekturasından gətirilmiş alovun bir məşəldə toplanması mərasimini keçiriblər.

Mərasim zamanı səhnəyə ölkənin 47 prefekturasından toplanan məşəllər gətirilib. Vahid Paralimpiya alovunu isə Olimpiya mükafatçısı, cüdoçu Tadahiro Nomura, Paralimpiya Oyunlarının iştirakçısı Aki Taquçi və aktrisa Satomi İşihara alovlandırıblar.

Təəssüflə qeyd edək ki, XVI Paralimpiya Oyunlarına da koronavirus pandemiyasına görə tamaşaçılar buraxılmayacaqlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Paralimpiya çempionumuz virusa yoluxdu



"Tokio-2020" XVI Paralimpiya Oyunlarında iştirak etmək üçün Yaponiya paytaxtına gələn cüdoçumuz, "Rio-2016"nın qızıl mükafatçısı Ramil Qasımov koronavirusa yoluxub.

Tokiodakı Atletlər kəndində idmançımızdan götürülən COVID-19 testinin nəticəsi müsbət çıxıb. Azərbaycan komandasının tələbi ilə bir neçə saat sonra götürülən təkrar test nümunəsinin də nəticəsi müsbət çıxdığına görə cüdoçumuz yarışlardan kənarlaşdırılıb.

O, Tokioda xüsusi karantin zonasına yerləşdirilib. Ramil Qasımov karantin müddəti başa çatdıqdan sonra Vətənə qayıdacaq. Həmçinin bildirilir ki, Ramil Qasımovla yaxın təmasda olan cüdo komandasının digər 11 üzvünün PCR testlərinin nəticələri mənfi çıxsa da, onlar da yüngül karantin rejimində qalacaqlar. Cüdo komandasının digər üzvlərindən gündəlik test nümunələri götürüləcək. Yüngül karantin rejimi zonasına yerləşdirilmiş idmançılarımız məşqlərinə davam edərək yarışlara qatılacaqlar. Lakin onların açılış mərasimində iştirak etmələrinə icazə verilməyəcək.

Qeyd edək ki, 11 cüdoçumuz arasında ikiqat Paralimpiya çempionu İlham Zəkiyev də yer alıb. Açılış mərasimində komandamızın bayraqdarı isə Pekində keçirilmiş Paralimpiya Oyunlarının qalibi Oloxan Musayev olacaq.

## Güllə atıcılığı üzrə komandamız artıq Tokiodadır



"Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında ölkəmizi təmsil edəcək güllə atıcılığı üzrə milli komandamız artıq Yaponiyadadır.

Paralimpiya oyunlarının atıcılıq yarışlarında ölkəmizi Yelena Taranova və Kamran Zeynalov təmsil edəcəklər. Artıq milli Paralimpiya komandamızın idmanın dörd növü üzrə heyətləri Tokioda Atletlər kəndindədir.

## AMPK-nin rəhbəri Atletlər kəndində idmançılarımızla görüşüb

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Tokioda Atletlər kəndində idmançılarla görüşüb.

Görüşdə komitə prezidenti İ.Rəhimov idmançılar üçün yaradılmış şəraitlə tanış olub, onların fiziki və psixoloji vəziyyətləri ilə maraqlanıb. Komitə rəhbərliyi idmançılarımıza qarşıdan gələn yarışlarda uğurlar arzulayıb. Görüşdə baş katib Kamal Məmmədov da iştirak edib.



## Pakistan və Hindistan diplomatlara vizaların verilməsini bərpa edib

Pakistan və Hindistan ikiillik fasilədən sonra diplomatlara işgüzar vizaların verilməsini bərpa edib. Bu barədə "Trend" Agentliyi xəbər verir. Məlumata görə, avqustda Pakistan Hindistanın 33 diplomatına, Hindistan isə 7 pakistanlı diplomata viza təqdim edib.

İki ölkə arasında qarşılıqlı vizaların verilməsi 2019-cu ildə dayandırılmışdı. Bu ilin əvvəlində isə Birləşmiş Ərəb Əmirliklərində Pakistan və Hindistan hərbçilərinin görüşü zamanı münasibətlərin normallaşması üçün yol xəritəsi müəyyən edilmişdir.

## Roma Papası səhhəti ilə bağlı vəzifəsindən gedə bilər

Roma Papası Fransisk səhhəti ilə əlaqədar olaraq vəzifəsindən gedə bilər. Bu barədə "Libero" qəzeti yazıb.

Məlumata görə, cari ilin dekabrında Roma Papasının 85 yaşı tamam olacaq. Ötən ay Papa Fransisk ümumi anesteziya altında bağırsaq əməliyyatı olunub. Bundan başqa, 2020-ci ilin fevral ayının sonunda - pandemiya başlayan ərəfədə Roma Papası güclü soyuqdəymə keçirib.

Xatırladaq ki, Papa Fransiskin sentyabrın 12-15-də Macarıstana və Slovakiyaya səfəri planlaşdırılıb.

## Rusiyada MDB-dən olan miqrantların sayı kəskin artıb

2021-ci ilin yanvar-may aylarında Rusiya ümumilikdə 260 928 immiqrant qəbul edib. Ölkədən çıxanların sayı isə 164 974 nəfər olub. Beləliklə, miqrasiya artımı 95 954 təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə çoxdur.

"APA-Economics"in Rusiya Federal Dövlət Statistika Xidmətinə ("Rosstat") istinadən verdiyi məlumata görə, hesabat dövründə Rusiyaya ən çox immiqrasiya MDB ölkələrindən olub. Belə ki, MDB-dən Rusiyaya 240 601 nəfər emiqrasiya edib, Rusiyadan isə MDB-yə 146 574 nəfər yollanıb. Beləliklə, miqrasiya artımı 94 027 təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,4 dəfə çoxdur.

Qeyd edək ki, cari ilin yanvar-may aylarında Rusiyaya ən çox Tacikistandan (43 995), Ermənistandan (32 113) və Qazaxıstandan (27 644) mühacir gedib.

# Beynəlxalq aləm



# Əfqan qaçqınlara qapı açan olacaqmı

BMT-nin rəsmi rəqəmlərinə əsasən, ABŞ və NATO qoşunlarını Əfqanıstandan çıxarmağa başladıqdan və "Taliban" hücuma keçdikdən sonra 550 min əfqan öz evini tərk edib. Onların böyük əksəriyyəti dövlət sərhədlərinə və Kabil Hava Limanına toplaşıb və müxtəlif yollarla hər həftə 20 mindən 30 minə qədəri ölkəni tərk edir.

Hazırda bu insanların əksəriyyətinin taleyi qonşu dövlətlərin - Pakistan, İran, Tacikistan və Özbəkistanın qərarlarından asılıdır. Əfqanıstanı tərk edən miqrantların yolunda ilk dayanacaq müvəqqəti çadır düşərgələrdir. İki dövlət - İran və Pakistan onları "sərhəddə qaçqınları qəbul etmək hüququ" ilə yerləşdirirlər. Lakin qaçqınların bir çoxu Avropaya getmək istəyir. Bu isə asan məsələ deyil. Çünki Avropa ölkələrində əfqan qaçqınların qəbulu ilə bağlı fikir ayrılığı var.

Avropa Parlamentinin spikeri David Sassoli Sloveniyanın Baş naziri Yanez Yanşanın miqrantları Avropa İttifaqının ərazisində yerləşdirmək istəməməsini açıq şəkildə tənqid edib. O, müvafiq bəyanatı Avropa Parlamentinin saytında yayıb. Yanşa bildirib ki, Avropa İttifaqı Əfqanıstan vətəndaşlarının qəbulu üçün humanitar dəhliz açmayacaq və xalqı öz ölkələri üçün mübarizə aparmağa çağırıb. Bununla yanaşı, Sloveniyanın Baş naziri Avropa İttifaqının Suriyadan miqrantları heç bir məhdudiyyət olmadan qəbul etməyə başladığı 2015-ci ilin səhvlərinin təkrarlanmasının yolverilməzliyini qeyd edib.

Buna cavab olaraq Avropa Parlamentinin rəhbəri David Sassoli qərbpərəst əfqanlara Aİ-də qaçqın statusunun verilməsinə tərəfdar olduğunu bəyan edib. O, qeyd edib ki, Sloveniyanın Baş naziri "Taliban"dan qaçanlarla həmrəylik nümayiş etdirməlidir və bu ölkə əfqanıstanlı qaçqınlarla bağlı Avropa İttifaqının atacağı addımlar barədə təkbaşına qərar verə bilməz. Hazırda Aİ-nin bütün təsisatları bu problemin həlli üzərində işləyir.

Əvvəllər əfqanıstanlı qaçqınların məskunlaşmasının əleyhinə olan ölkələrin siyahısına Avstriya, İsveç, Danimarka və Yunanıstan da qoşulub. Bu aradaTürkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Böyük Britaniyanın Baş naziri Boris Conson arasında telefon danışığı olub və Əfqanıstanda baş verən son hadisələr müzakirə edilib. Ölkəsinin hazırkı əsas vəzifəsinin öz vətəndaşlarının Əfqanıstandan təxliyə edilməsi olduğunu qeyd edən Türkiyə Prezidenti bu prosesin Kabil Hava Limanında əlverişli vəziyyət yarandıqca davam etdiriləcəyini bildirib. Prezident Ərdoğan əfqan xalqına qonşu dövlətlərdən də yardım edilməsinin vacibliyini vurğulayıb. Bildirilib ki, Əfqanıstanda yaranan mövcud vəziyyət səbəbindən yeni köç dalğasının qlobal böhrana çevrilməsinin qarşısının alınması üçün başda Avropa İttifaqı ölkələri olmaqla hər kəs məsuliyyət daşımalı və beynəlxalq birlik bu məsələdə birləşməlidir.

Bu arada xəbər yayılıb ki, "Taliban" hərəkatı Əfqanıstanın Pəncşir əyalətində müqavimət qüvvələrini mühasirəyə alıb. Bu barədə "Taliban"ın rəsmi nümayəndəsi Zəbihulla Mücahid "Twitter"də bildirib. O, danışıqlar yolu ilə sülhə nail olmağa cəhd etdiklərini vurğulayıb.

Qeyd edək ki, Pəncşir əyaləti talibİərə təslim olmayıb. Pəncşirdə müqavimət qüvvələrinə əfsanəvi səhra komandiri Əhməd Şah Məsudun oğlu Əhməd Məsud rəhbərlik edir. O, "Şarkul Avsat" televiziya kanalına verdiyi müsahibəsində bildirib: "Taliban"la danışıqlara hazırıq və Əfqanıstanda sülhün və əmin-amanlığın yaranması üçün atamın qanının tökülməsini də bağışlaya bilərəm". Onun dediyinə görə, bir neçə dəfə nümayəndələri vasitəsilə taliblərlə görüş keçirib. Lakin vahid mövqedən çıxış etmək məsələsinin müzakirəsi nəticəsiz qalıb.

"Biz də müsəlmanıq, biz də Əfqanıstanda sülh olmasını istəyirik və bu səbəbdən "Taliban"la birlikdə çalışmağa hazırıq. Lakin "Taliban" məsələləri silah gücünə həll etməyə çalışır ki, bu da qarşılıqlı əməkdaşlığa imkan vermir", - deyən Ə.Məsud atasının da vaxtilə "Taliban"la nəticəsiz danışıqlar apardığını xatırladıb. O bildirib ki, danışıqlar səmərəli aparılsa, bütün Əfqanıstanda sülh bərpa olunacaq.

"Taliban" hərəkatı Əfqanıstan Prezidenti Əşrəf Qani və vitse-prezident Əmrulla Saleh haqqında amnistiya elan edib. "Taliban"ın liderlərindən biri Xəlil Hakkani Pakistanın "Geo TV" telekanalına bildirib ki, prezidenti, vitse-prezidenti və prezidentin təhlükəsizlik məsələləri üzrə müşaviri Həmdulla Mohibi əfv edirlər: "Onlar istəsələr, ölkəyə qayıda bilərlər. Öz tərəfimizdən bizə qarşı döyüşmüş generaldan tutmuş adi insana qədər hamını bağışlayırıq. Əfqanıstan rəhbərliyi ilə bizim aramızda düşmənçilik yalnız dinlə bağlı olub".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***




# Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır



● Ədəbi simalarımız



**Qarabağda məşhur olan Cavanşirlər nəslinin övladıydı Qasım bəy Zakir. Onun ulu babası Kazım ağa Şuşa şəhərinin əsasını qoyan Pənahəli xanın qardaşı idi. Qasım bəy 1784-cü ildə Şuşa kimi gözəl, əsrarəngiz şəhərdə, əsilli-köklü bəy ailəsində dünyaya göz açıb. Dövrünə uyğun mollaxana təhsili alıb. Öyrəndiyi ərəb, fars dilləri sayəsində Yaxın Şərqin Nizami, Firdovsi, Sədi, Hafiz kimi şöhrətli şairlərinin əsərlərini oxuyub.**

# Mübariz ruhlu şair - Qasım bəy Zakir

Şairlik istedadı fitrətdən idi. Bəlkə müharibəsiz, qansız-qadasız bir dövrdə dünyaya gəlsəydi, şeirlər yazacaq, klassik şairlər kimi o da gözəlləri, gözəllikləri vəsf, ədaləti, humanizmi, xeyirxahlığı tərənnüm edəcəkdi. Ancaq Qasım bəy hələ yeniyetmə ikən Qarabağda baş verən siyasi-hərbi hadisələrin şahidi oldu. 1795-ci ildə Qacar Qarabağa hücum edəndə Qasım bəyin on bir yaşı vardı. Qasım bəyin yeniyetməlik və gənclik illəri Şuşanın Qacar ordusu tərəfindən mühasirədə saxlandığını, şəhər sakinlərinin işğalçıların qarşısında mətanətlə dayandığını, Qacarın Şuşada qətlə yetirildiyini, şair Molla Pənah Vaqifin öz oğlu ilə Cıdır düzündə öldürüldüyünü, daha sonra da İbrahim xanın vəhşicəsinə güllələndiyini görüb keçib. Bir-birini əvəz edən bu gərgin, mürəkkəb, faciəli hadisələr onun yaddaşında silinməz izlər buraxıb.

Vaxt gəlib, müharibə gənc Qasım bəyi də öz çənginə alıb. Qarabağ xanlığı Rusiyanın idarəçiliyinə daxil ediləndən sonra o, çar ordusunun Qafqaz müsəlman könüllü atlı dəstəsinə qoşulub. 1806-1813-cü illər və 1826-1828-ci illər Rusiya-İran müharibələrinin iştirakçısı olub. Abbas Mirzənin başçılıq etdiyi İran qoşununa qarşı döyüşən dəstənin tərkibində vuruşan Qasım bəy 1828-ci ildə fərqləndiyinə görə çarın əmri ilə gümüş medalla təltif edilib.

Şair qəlbli Qasım bəy müharibənin əzab-əziyyətlərə, səfalətə düçar etdiyi, yurdundan, evindən didərgin saldığı insanları görüb. Onlara əlindən gələn köməyi etməyə çalışıb. Qasım bəy Zakir 1828-ci ildə müsəlman əyalətlərinin hərbiyyə rəisi general-mayor Abxazova məktubunda yazıb: "1827-ci ildə Abbas Mirzənin qoşunları məğlubiyyətə uğradıqdan sonra Mehdiqulu xanın yanına gedərək bir gecə onun yanında oldum, onunla söhbətdən sonra Araz çayının o tayında on iki ağaclıq məsafədə olan Soraqlı camaatından 500-ə yaxın evi Arazın bu tayına köçürüb Tuğ kəndində yerləşdirdim".

Bu yaraşıqlı, xoşsima şairin məhəbbət macəraları barədə də çox söhbətlər dolaşıb, dastan qoşulub. Qasım bəy Zakir isə öz sevgi dolu misralarında səmimi, cəsarətli aşiq təsiri bağışlayır. Şair yazıb:

*Sürmə çəksin gözlərinə, qaşına,*
*Gündə yüz yol mən dolanım başına.*
*Zakir tək yanmağa eşq atəşinə,*
*Cürəti var isə, pərvanə gəlsin.*

Ömrü siyasi, ictimai hadisələrin burulğanında keçən şair 1829-cu ildə böyük bir faciə ilə üzləşib. Oğlu xəstələnərək vəfat edib. Övlad dərdi Zakirin şux qamətini əyib.

Şairin gənclik illəri döyüş meydanlarında, at belində keçib. Müharibənin məşəqqətləri mərd, qorxmaz xarakterini daha da möhkəmləndirib. 1830-cu illərin sonlarından başlayaraq təsərrüfatla məşğul olub. Ancaq bundan sonra da dünyası yalnız Qarabağla sərhədlənməyib. Böyük hörmət, nüfuz sahibi olan Zakir dövrünün Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qurtqaşınlı, Baba bəy Şakir, Xurşidbanu Natəvan kimi tanınmış ziyalıları, eləcə də gürcü knyazı İliko Orbeliani, Bakı general-qubernatoru Mixail Kolyubakinlə əlaqə saxlayıb, məktublaşıb.

Həyatı yeni axarla davam edib. İlin yay fəslini Şuşada, qalan fəsillərini isə Xurşidbanu Natəvanın atası Mehdiqulu xanın ona bağışladığı, iyirmi evdən ibarət, illik gəliri 450 manata yaxın olan Xındırıstan kəndində keçirib.

İstedadlı şair, maraqlı həmsöhbət, xeyirxah insan kimi tanınan Zakir heç vaxt ədalətsizliyi, insafsızlığı qəbul etməyib, çəkinmədən hər kəsin səhvini üzünə deyib. Satirik şeirlərində, həcvlərində tənqidlərində də şair səmimi, dürüst olub. "Vilayətin məğşuşluğu haqqında" dostu Mirzə Fətəliyə yazıb:

*Xəbər alsan bu vilanın əhvalın, -*
*Bir özgədir keyfiyyəti-Qarabağ.*
*Həqdi, bundan əqdəm görübsən sən də.*
*Hanı o qaidə, o qanun səyaq?*

*...Həddən aşıb büxlü həsəd, şərarət.*
*Yoldaş yoldaşına eylər xəyanət,*
*Alimdə əməl yox, bəydə ədalət.*
*İşlərimiz olub saf gərdən-bucaq.*

Qasım bəy Zakirin rəiyyətin dərdini çəkməsi, onlara müəyyən məsələlərdə məsləhətlər verib ayıq salması yerli bəyləri hiddətləndirmişdi. Üstəlik, onların çoxunu Zakir satirik tənqidinin hədəfinə çevirmişdi. Qarabağın bəylərindən olan, həm də şairlik edən Cəfərqulu xan Nəva, Şuşa qazisi Mirzə Əbülqasim, yerli çar hakimi Konstantin Tarxan-Mouravov da Zakirin qəddar düşmənlərindən idilər. Onlar şairi dövlət nəzərində etibardan salmaq, həbs etdirmək üçün fürsət axtarıblar. Düşmənləri üçün bəhanə tapmaq isə çətin olmayıb. Zakirin qardaşı oğlu Rüstəm bəy gecə işdən qayıdarkən günahsız yerə həbs olunaraq öldürülüb. Rüstəm bəyin qardaşı Behbud bəy yerli çar məmurlarından intiqam almağa and içib və çar hökumətindən qaçaq düşüb.

Behbud bəyin çar məmurlarını və polis işçilərini təqib etməsini, bəzilərini öldürməsini bəhanə edən düşmənləri bu məsələdə Zakiri günahlandırıblar. Şuşa vilayətinin rəisi Tarxan-Mouravov 1849-cu ilin oktyabrında böyük dəstə ilə Xındırıstana basqın edib. Kəndliləri soyub-talayıblar.

Ailəsi ilə birlikdə həbs edilən qoca şairlə kobud davranıb, ona əziyyətlər veriblər. O vaxt Zaqafqaziya mülki idarə rəisi Qafqaz canişininə raportunda yazıb: "Altmış yaşlı Qasım bəy Əli bəy oğlu ciddi polis nəzarəti altında saxlanılmaq şərtilə Bakıya sürgün olunsun, ailəsi isə onunla birlikdə oraya getməyə məcbur edilməsin; iyirmi üç yaşlı Nəcəfqulu bəy, iyirmi yaşlı qohumu İsgəndər bəy Əli bəy oğlu, hərəsi təklikdə üç il müddətinə Rusiyanın daxili vilayətlərinə sürgün edilsinlər; həm də sürgün xərcləri onların öz hesabına olmalıdır. Behbudun anası və səkkiz yaşlı kiçik qardaşı Mustafa yaşadıqları yerdə qalsınlar".

Behbud bəy həbsxanada vəhşicəsinə öldürülür. Onun meyitini şairin qızı Nənəş xanım yaxın adamları vasitəsilə qaladan oğurlayaraq dəfn edir.

Şair həbsxanadan hökumət dairələrinə dəfələrlə məktubla müraciət edərək qanunsuz tutulduğunu bildirib. Ancaq şikayətlərinə ədalətli cavab verilməyib. O, bir ilədək Şuşa həbsxanasında saxlanılıb. Sonra mühakimə olunmadan Bakıya sürgünə göndərilib. Oğlu Nəcəfqulu bəylə qardaşı oğlu İsgəndər bəyi isə Tiflisə aparıblar. Oradan əvvəl Voronejə, sonra Kaluqaya sürgün ediblər. Şairin digər ailə üzvləri Şuşada qalıblar.

Bakıda Zakir dövlət idarələrində çalışan dostlarına məktubunda qanunsuz həbs olunduğunu yazıb. O zaman Tiflisdə Canişinlik idarəsində işləyən Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qutqaşınlı, Bakı qubernatoru Mixail Kolyubakin, gürcü knyazı İliko Orbeliani Zakirin sürgündən azad olmasına səy göstəriblər. Onlar bir neçə ay sonra şairin Şuşaya dönməsinə nail olublar. Oğlu və qardaşı oğlu isə üç il Rusiyada sürgündə qalıblar.

Zakirə Şuşada da azad yaşamağa imkan verməyiblər. O, ömrünün sonunadək polis nəzarətində olub, maddi ehtiyac və çətinliklər içərisində güzəran keçirib. Qarabağa qayıtdıqdan sonra çar hökuməti ona təqaüd ayırıb. Amma 1857-ci ildə, ilk təqaüd pulu Şuşaya çatanda Qasım bəy Zakir artıq vəfat etmişdi. Şəhərin Mirzə Həsən qəbiristanlığında dəfn edilən şairdən çoxlu xoş söz-söhbət və ölməz əsərlər qalıb. XIX əsr realist Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Zakirin ədəbi irsi xalqımızın mədəniyyət xəzinəsində özünəməxsus yer tutur. Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Qasım bəy Zakir Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına salınır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Ustad xanəndələrimiz

# Azərbaycan musiqisinin Xanı

## Hələ on-on iki yaşlarından əsl "adı unudulmuş" səsin sahibinin anadan olmasından 120 il keçir

### "Xan" ləqəbinin verilməsi

1901-ci il avqustun 20-də anadan olmuş, səsin və musiqinin xanı kimi tanınmış İsfəndiyar Aslan oğlu Cavanşirov Şuşada, muğam beşiyinin bünövrəsini qoymuş məşhur Cavanşirlər sülaləsinin nəsil daşıyıcılarından idi.

Sovet hakimiyyəti digər bəylər və xanlar kimi, onun babası Aslanın da Şuşadakı mülkünü müsadirə edib, özünü doğma yurdundan didərgin salmışdı. Bundan sonra Aslan bəy Bərdədə məskunlaşmalı olmuşdu.

Onun səsinin cilalanmasında, ümumiyyətlə, bu sənətə gəlişində Segah İslamın xüsusi əməyini ustad xanəndə xatirələrində də bildirib. "Xan" ləqəbinin ona verilməsi də maraqlı bir hadisə ilə bağlıdır. Segah İslam səsini bəyənib şəyird götürdüyü İsfəndiyarı özü ilə Ağdamın Novruzlu kəndində keçirilən məclislərin birinə aparıb. Məclis başlanmamış ev sahibi xanəndə İslamın arzusu ilə qrammofonu qurub. Təbrizli Əbülhəsən xanın ifasında "Kürd-Şahnaz"ı dinləyiblər. Bu məşhur xanəndənin səsinin məclis əhlini xəyallara qərq etdiyi anlarda ustad üzünü şəyirdi İsfəndiyara tutaraq deyib:

- Bəlkə, sən də bizim üçün bir "Kürd-Şahnaz"ı oxuyasan?

Hələ sənət meydanında ilk addımlarını atan İsfəndiyar bu təklifdən tutulub. Xeyli fikirləşməli olub. 12 yaşından saatlarla Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Əbülhəsən xanın vallarını oxudub diqqətlə qulaq assa da, onları hətta əməlli-başlı təqlid etsə də, tərəddüd içərisində qalıb. Amma ustadın təklifinə yox deməyə də cürət etməyib. Məclis əhli İsfəndiyarın ifasında "Kürd-Şahnaz" muğamını dinləyib. Muğamın zil hissəsində hamı çaş-baş qalıb. Yerbəyerdən "əhsən" sədaları ucalıb və "əsl Xan bu imiş ki...", - deyiblər.

Şəyirdinin bu məharəti ustadı vəcdə gətirib, elə oradaca ona xeyir-dua verib: "Bu gündən sən oldun Xan Şuşinski"...

### "Şuşanın dağları..." mahnısının sözləri də Xan əminindir

Xan Şuşinski təkcə muğam ustası olmayıb, o, eyni zamanda, həm şeir yazır, həm də mahnı bəstələyirmiş. Uzun müddət onun bəstələri xalq mahnısı kimi təqdim edilib. Bir çox hallarda xalq mahnısı kimi təqdim olunan "Qəmərim", "Şuşanın dağları...", "Ay gözəl", "Al yanağında", "Məndən gen gəzmə", "Gözəl yarım", "Ölürəm", "Dağlarda çiçək...", "A ceyran bala"nın müəllifi Xan Şuşinskidir. Onu da əlavə edək ki, "Şuşanın dağları..." mahnısının sözləri də Xan əminindir.

Səsinə İlahinin əmanəti kimi baxan Xan Şuşinski hələ gənclik illərindən ona verilən yüksək adın - "Xan"ın şərəfini qoruyub. Daim səsinin sehrinə düşdüyü və özünə ustad bildiyi təbrizli Əbülhəsən xanla Xan Şuşinski 1944-cü ildə görüşüblər. Ustad xanəndənin yaddaşına yazılan xatirələrdən biri də Əbülhəsən İqbal Soltanın onunla yaxından maraqlanması və "Qrand hotel"də şərəfinə qonaqlıq verməsi olub.

XVIII əsrdə yaşamış Qarabağın məşhur xanəndəsi Mirzə Hüseynin adı ilə bağlı yaranan segah "Mirzə Hüseyn" adlanır. Xan Şuşinskini də segahın həmmüəllifi sayırlar. Ona görə ki, sonralar bu segaha Xan Şuşinski "Manəndi müxalif" şöbəsini əlavə edib.

Maraqlı məqamlardan biri də odur ki, Xan Şuşinski Üzeyir bəy Hacıbəylidən başqa heç bir bəstəkara müraciət etməyib. Bunun əsas səbəbi Üzeyir bəyin Xan Şuşinskinin ifasında öz mahnılarını dinləməsindən xüsusi zövq alması imiş. Xan Şuşinskinin ifasında səslənən "Qaragöz" mahnısı isə dahi bəstəkarın daha çox xoşladığı mahnılardan biri olub. 1926-cı ildə bəstələnən bu mahnı ilk dəfə Xan Şuşinskinin ifasında səslənib.



### "Havalansın Xanın səsi..."

Xan Şuşinskinin özünün sevdiyi "Qarabağ şikəstəsi" idi. Ona görə də daha çox onu oxuyardı. Şikəstə ondan əvvəl məclisdə neçə dəfə ifa olunursa-olunsun, Xan Şuşinski bütün çıxışlarında birinci sevimli muğamını təqdim edərdi. Deyirlər ki, bu, çox təbii qarşılanırmış.

O, bütün muğamları məharətlə ifa edirdi. Ritmik muğamları isə qeyri-adi bir ustalıqla oxuyar, dinləyicidə böyük ruh yüksəkliyi yaradardı. Azərbaycan musiqi tarixinin əvəzsiz korifeyi sayılan Xan Şuşinskinin səsinin yadigarı kimi onun 40 saatlıq lent yazısı qalıb.

Xan Şuşinskinin ömrü onun səsi, nəfəsi ilə cilalanmış muğamlarımız qədər əbədiyaşardır. 1979-cu il mart ayının 18-də dünyadan bir xan köçsə də, qəlblərdə yaşayır...

Yeri gəlmişkən qeyd edək ki, 1943-cü ildə Azərbaycanın Xalq artisti adına layiq görülmüş, müstəsna fitri istedadlı, geniş diapazonlu, gur və məlahətli səsi, yüksək ifaçılıq mədəniyyəti sayəsində Xan Şuşinski hələ gənclik illərindən şöhrətin zirvəsinə ucalıb.

Bioqrafiyasına yazılanlara bir daha nəzər saldıqda görürük ki, yaradıcılığında "Mirzə Hüseyn", "Şahnaz", "Qarabağ şikəstəsi", "Kürd-Şahnaz", "Rast", "Bayatı-Şiraz", "Qatar", "Cahargah", "Mahur", "Heyratı", "Şur" kimi muğam və segahlar əsas yer tutur.

Ustad xanəndənin yaradıcılığına həsr olunmuş bir çox filmlər də var: "Muğamat var olan yerdə", "Muğamlar", "O olmasın, bu olsun", "Bakı bağları: Buzovna", "Biz qayıdacağıq", "Havalansın Xanın səsi", "Mədəniyyət salnaməsi: Əbülfət Əliyev", "Özgə ömür", "Prima", "Qızıl Fonddan seçmələr", "Səs"...

Bir vaxtlar sədaları Şuşadan, İsa bulağından, Turş sudan, Cıdır düzündən gələn, bir sözlə, aranlı-dağlı cənnət-misal Qarabağımızın azman və ölməz sənətkarlarının duyğularımıza sığal çəkən səslərini lent yazılarından eşidir və kövrəlirdik. Xan əminin "Qarabağ şikəstəsi", "Şur"u, "Cahargah"ı hopmuş qayalardan xınalı kəklikləri 30 il perik düşsə də, bulaqların gözü tutulsa da, cığırları ot bassa da, el yaylağa qalxa bilməsə də, Topxanada xanələr qurulmasa da, ruhumuzda, canımızda bir məhəbbət yaşayırdı: torpağa, yurda, doğma ellərə qayıdış həvəsi, mübarizlik, dönməzlik və əyilməzlik...

Budur, Cıdır düzü bu il yenidən "Xarıbülbül" beynəlxalq musiqi festivalına sinə açdı, meydan verdi: Şuşa əvvəlki növrağına qayıtdı. Xan əminin ruhu dolaşan qayalarda yenə də həsrəti çəkilən doğma səslər, nəfəslər duyuldu. Ruhunuz şad olsun, Şuşanı könül şüşəsi kimi tanıdanlarımız...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Tarixdən gələn səslər

# Ədəbi məclislər

### "Məclisi-üns"

"Məclisi-üns" ədəbi məclisi 1864-cü ildə Şuşada şairlər Mirzə Rəhim Fəna və Hacı Abbas Agahın təşəbbüsü ilə dövrün görkəmli ziyalısı Mirzə Əli Qazinin mədrəsəsində təşkil olunub. Məşğələlər bir müddət sonra Hacı Abbas Agahın evində keçirilib, 1872-ci ildən isə Xan qızı Natəvanın sarayında davam etdirilib. Tədqiqatçı-jurnalist Vasif Quliyev yazır ki, otuzdan çox üzvü olan məclisin rəhbəri Xurşidbanu bəyim idi. Mirzə Rəhim Fəna, Hacı Abbas Agah, Mirzə Ələsgər Növrəs, Mirzə Həsən Yüzbaşov, İsgəndər bəy Rüstəmbəyov, Mirzə Sadiq Piran, Baxış bəy Səbur, İsmayıl bəy Daruğə, Məşədi Nəsir Lövhi və başqaları məclisin daimi və nüfuzlu iştirakçıları idilər. Qarabağın görkəmli xanəndə və sazəndələri də məclisin yığıncaqlarında fəal iştirak edirdilər. 1897-ci ildə Xurşidbanu Natəvan vəfat edənə qədər "Məclisi-üns" öz fəaliyyətini davam etdirib.

### "Məclisi-fəramuşan"

Bu ədəbi məclis 1872-ci ildə Şuşada Mir Möhsüm Nəvvabın təşəbbüsü ilə onun mənzilində təşkil olunub. Məclisin rəhbəri Mir Möhsün Nəvvab, üzvləri isə "Məclisi-üns"ün "fəramuş etdiyi", yəni unutduğu şairlər olublar. Qırxa yaxın üzvü olub. Həsənəli xan Qaradağı, Fatma xanım Kəminə, Abdulla bəy Asi, Məşədi Əyyub Baki, Mirzə Məhəmməd Katib, Bəhram bəy Fədai, Mirzəli Aşıq və başqa şairlər məclisin fəal iştirakçıları idilər. Şairlərlə yanaşı, Qarabağın məşhur xanəndə və sazəndələri də məclisin yığıncaqlarında iştirak edirdilər. "Məclisi-fəramuşan" 1919-cu ilədək fəaliyyət göstərib.

### "Azərbaycan ədəbiyyat cəmiyyətinin Şuşa şöbəsi"



Mir Möhsün Nəvvab



Xurşidbanu Natəvan



Mirzə Ələsgər Növrəs



Fatma xanım Kəminə

Tədqiqatçı-jurnalist V.Quliyev 1925-1927-ci illərdə "Azərbaycan ədəbiyyat cəmiyyətinin Şuşa şöbəsi"nin fəaliyyəti haqqında yazır ki, təşkilata istedadlı şair və jurnalist, görkəmli ictimai xadim, Şuşa Dairə İcraiyyə Komitəsinin sədri Ağahüseyn Rəsulzadə rəhbərlik edirdi. Ədəbi məclis xarakteri daşıyan bu cəmiyyət, əsasən, müəllim və tələbələr başda olmaqla, Qarabağın bütün gənc ədəbi qüvvələrini-yerli şair, yazıçı və jurnalistlərini öz ətrafına toplamışdı. Əksəriyyəti bu yaradıcı təşkilatın üzvü olan bəzi yazarlar ədəbiyyata vəsiqəni həmin cəmiyyətdən almışdılar. Şöbənin nəzdində bir çox dərnəklər təşkil olunmuşdu. Dərnəklərin xətti ilə qərarlar çıxarılır və tədbirlər həyata keçirilirdi. Cəmiyyətin bütün üzvləri şəhərin mədəni mühitində fəal rol oynayır, onların yaxından köməyi ilə Bakıdan məşhur musiqi və mədəniyyət xadimləri Şuşaya dəvət olunur, görüşlər təşkil edilirdi.

1925-ci ilin yayında cəmiyyətin yaradıcı üzvləri dahi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyinə həsr edilmiş təntənəli ədəbi-bədii, musiqili gecə keçirmişdilər. Tədbirə Cabbar Qaryağdıoğlu, Məşədi Cəmil Əmirov, Bülbül, Cəfər Cabbarlı və digər ədəbiyyat və incəsənət xadimləri dəvət olunmuşdular. Gecədə xanəndə və müğənnilər muğam, təsnif, xalq mahnıları oxumuş, bədii qiraət ustaları Füzuli şeirlərindən nümunələr söyləmiş, yerli poeziya həvəskarları və musiqiçilər çıxış etmişdilər. Böyük təntənə və uğurla keçən gecədən sonra hər il yay aylarında məclislərin təşkil edilməsi və Azərbaycanın müxtəlif guşələrindən incəsənət nümayəndələrinin Şuşaya dəvət olunması ənənə halını almışdı.

### "Vaqif çeşməsi"

Ötən əsrin 30-80-ci illərində Şuşada bir-birinin ardınca müxtəlif adlarla ədəbi məclislər fəaliyyət göstərib. Onlardan biri də "Şuşa" rayon qəzeti nəzdində idi və özündən əvvəlki ədəbi məclislərin yolunu davam etdirirdi. Bu ədəbi məclis əvvəllər "Qönçələr", sonra isə "Vaqif çeşməsi" adlanırdı. 1982-ci ildə "Mamayi" məscidi bərpa edildikdən sonra yerli şairlərin ixtiyarına verilərək Natəvan adına Poeziya evi kimi fəaliyyət göstərib. Ətrafında 30-dan artıq gənc şair və yazıçını birləşdirən birlik yeni yazmağa başlayan istedadlı yazarlar hesabına öz fəaliyyətini daha səmərəli şəkildə davam etdirirdi. 1984-cü və 1989-cu illərdə "Yazıçı" nəşriyyatında birlik üzvlərinin şeirlərindən ibarət "Vaqif çeşməsi" adlı poeziya almanaxı buraxılıb. Birlik hazırda "Şuşa" qəzetinin nəzdində fəaliyyətini davam etdirir.

***"Azərbaycan"***

● Foto-etüd



*"Musiqi irsi və Qarabağ atları Cıdır düzündə"*

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ

## *açıq tender elan edir*

Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı və Sosial Ödənişlərin Təyinatı üzrə Mərkəzi Filialının inzibati binasının əsaslı təmir işlərinin, avadanlıqların və inventarların satın alınması

Tender iştirakçılarına təklif edilir ki öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi, 80 (telefon: (012) 530 29 03 e.poçt: tender@sosial.gov.az) ünvanından ala bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 500,00 (beş yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 4**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 29.4-cü maddəsinə əsasən, tenderdə iştirak haqqı geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri);*
2. *Tender təklifi* ***(təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);***
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı* ***(tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);***
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir;***
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə);*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı. Bank hesabında qalıq vəsait və ya kredit xətti imkanı ən azı 1300000,00 manat olmalıdır* ***(əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir;***
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd* ***(Malgöndərən (podratçı) tərəfindən hazırlanır);***
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması* ***(malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş);***
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat* ***(Dövlət Statistika Komitəsindən alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 10.05.2021-ci il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir;***
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması* ***(Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir;***
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat* ***(Kommersiya məhkəməsindən alınmalıdır); Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir.***
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat* ***(Malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. 23.08.2021-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;***
13. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasını təsdiq edən sənəd.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **24.09.2021-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı möhürlənmiş ikiqat zərfdə **04.10.2021-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi, 80 ünvanında yerləşən Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **05.10.2021-ci il saat 16:00-da** H.Zərdabi, 80 ünvanında yerləşən Dövlət Sosial Müdafiə Fondunun Aparatında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması üçün

## *açıq tender elan edir*

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, yüksək keyfiyyət, müqavilələrin vaxtında yerinə yetirilməsi.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 3 ay ərzində.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Sirac Əliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (110).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 500,00 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001781**
**M/h: AZ03NABZ01340100000000002844**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38029018441756516201**
**VÖEN: 1400015711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *iddiaçının tenderdə iştirak etmək üçün yazılı müraciəti;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının tam adı, hüququ statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanları barədə təsdiqedici sənədlər;*
- *iddiaçının satınalma prosedurunun başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, müvafiq peşə fəaliyyəti ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;*
- *iddiaçının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd;*
- *iddiaçı işlərinin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmalıdır;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **10 sentyabr 2021-ci il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **20 sentyabr 2021-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **21 sentyabr 2021-ci il saat 11:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

01 iyul 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalında elektron satınalmalar proseduru çərçivəsində keçirilmiş açıq tenderlə əlaqədar Tender komissiyasının 09 avqust 2021-ci il tarixli qərarına əsasən, Azərbaycan Respublikası Mərkəzi Bankında məlumat itkisinin qarşısının alınması, məlumat bazalarına və həmçinin sistemlərə giriş-çıxışın nəzarəti üzrə avadanlıq və proqram təminatlarının alınaraq quraşdırılması xidmətinin satın alınması üzrə "SMART IT" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair dövlət proqramı" üzrə dərman vasitələrinin satın alınması üzrə keçirilmiş açıq tender (elektron) prosedurunun qalibləri 3 iddiaçı - "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Keşəli" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Yurd Pharma" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir.

10.08.2021-ci il tarixdə agentlik ilə "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli *Cəmiyyəti arasında 134,992.00* ***(bir yüz otuz dörd min doqquz yüz doxsan iki manat 00 qəpik) manat,*** *"Keşəli" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında* ***962,697.10 (doqquz yüz altmış iki min altı yüz doxsan yeddi manat 10 qəpik)*** *və "Yurd Pharma" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında isə* ***196,582.10 (bir yüz doxsan altı min beş yüz səksən iki manat 10 qəpik) manat*** məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 13 avqust 2021-ci il tarixdə keçirilmiş "20 Yanvar hadisələrinin mahiyyətinin təbliği" adlı təkrar müsabiqənin qalibləri "Yeni Yazarlar və Sənətçilər" İctimai Birliyi və "20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının Təmin Olunması" İctimai Birliyi, "Vətən müharibəsi şəhidləri və əlilləri haqqında "Unudulmazlar" innovativ informasiya resurslarının yaradılması" adlı müsabiqənin qalibi fiziki şəxs Mərdan Orxan Şiruyyə oğlu, "Əlilliyi olan şəxslərə diqqət və qayğının artırılması məqsədilə maarifləndirici nəşrlərin hazırlanması" adlı təkrar müsabiqənin qalibləri "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyi və "Royal Events" MMC olmuşdur. "Əlilliyi olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqə baş tutmamış hesab edilmişdir.

***Müsabiqə komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikası Mərkəzi Bankı bankın əməkdaşları üçün tibbi sığorta xidmətlərinin alınması üzrə

## *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz əməkdaşlarının tibbi sığortalanması üzrə açıq tender keçirir.

Tender proseduru 22 sentyabr 2021-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyətini həyata keçirmək hüququ verən xüsusi razılığın (lisenziyanın) və könüllü tibbi sığorta növü üzrə müvafiq qaydada təsdiq olunmuş qaydaların surəti;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (Tender təklifi 03 noyabr 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tibbi sığorta fəaliyyəti sahəsində ən azı 3 (üç) il təcrübəsinin olması barədə məlumat;*
- *sığorta qanunvericiliyinə uyğun olaraq onunla əlaqəli şəxs olmayan və ya iddiaçı üzərində əhəmiyyətli nəzarəti həyata keçirməyən ən azı 2 (iki) korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu;*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 21 sentyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 13 sentyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsinə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İştirak haqqı 300 (üç yüz) manatdır. Tenderdə iştirak haqqı Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına köçürülməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK: NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Xidmətin göstərilməsinə başlanma vaxtı: 27.11.2021-ci il tarixdən.

Xidmətin göstərilməsi müddəti: 1 (bir) il müddətində.

Qiymətləndirmə amilləri: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən sığortaçılar iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsindən Azərbaycan dilində tərtib edilmiş tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxs:

Elvin Şirdanov (Hüquq departamenti). Telefon: 493-11-22 (428).

Aynurə Salihova (İnsan resursları departamenti). Telefon: 493-11-22 (225).

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzər Dəniz Neft Donanmasının "Narva" gəmisi üçün müxtəlif polad və bürünc siyirtmələrin satın alınması məqsədilə

## *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 01 sentyabr 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1171.

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti mətbəx ləvazimatlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 07 sentyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# ALLAH RƏHMƏT ELƏSİN!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi komitənin sektor müdiri Rəsmiyyə Qasımovaya atası

**ADİL QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafarovlar ailəsindən Kamil, Şamil, Aqil, Şəhla və Kəmalə dərin hüznlə əzizləri - Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti

**GÜLŞƏN MUSTAFAYEVANIN**

vəfatını qohumlarına və yaxınlarına bildirirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi İqtisadiyyat (rus dilli) kafedrasının dosenti

**GÜLŞƏN MUSTAFAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, sədrin birinci müavini Müfti Salman Musayev, Qazılar Şurasının üzvləri və idarənin kollektivi Qazılar Şurasının üzvü

**BƏHRUZ ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Orxan, Nigar, Eltac, Gülnar əzizləri - Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Kamil Qafarova həyat yoldaşı

**GÜLŞƏN MUSTAFAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4928
Sifariş 1512
Qiyməti 40 qəpik